Avropa Enerji Komissiyasının 2020 ci il hesabatlarna görə inşaat materiallarının hazırlanmasında 35% təbii ehtiyat istifadəsi, 40% enerji istehlakı, 30% miqdarında isə havaya $CO_2$ buraxılması baş verir.

Təbii xammalların daha az istifadə edilməsi, ekoloji çirklənmənin minimuma endirilməsi, eləcədə enerji xərclərini azaltmaq məqsədilə sənaye tullantılarının istifadəsi böyük maraq kəsb edir [3]. Düşünülür ki, təkrar emal, təbii ehtiyatların təmin edilməsinə və qorunmasına töhfə verir.

Tullantılar tikinti sənayesinin bir çox sahələrində yaranır. Bunlara misal olaraq faydalı qazıntı yataqlarının işlənilməsi və istehlakı sonrası yaranan tullantılar aid edilə bilər.

Azərbaycan zəngin dağ süxurları ehtiyatına malikdir. Bu süxurların içərisində tikintidə geniş istifadə olunan təbii daş materialları xüsusi yer tutur. Buna sübut olaraq 2006 cı ilin hesabatlarına görə ölkəmizdə fayadalı qazıntı yataqlarının dövlət balansında 323 inşaat materialları sənayesi üçün xammal kimi istifadə olunan dağ süxuru yataqları qeydə alınıb. Bunlara: 59 mişar daşı, 48 əhəngdaşı, 9 tuf, 1 qumdaşı, 1 travertin yatağı, 22 üzlük daşı, 12 mərmərləşmiş əhəngdaşı, və s. misal göstərmək olar [4].

Ümumilikdə daş 2 tipdə olur: “Təbii və Süni”. Təbii daşlarda öz növbəsində yüngül və ağır olmaqla 2 yerə ayrılır. Yüngüllərə but daşını misal göstərmək olar. Ağırlara isə mərmər, granit, bazalt və s. misal göstərmək olar. Süni daşlara gəldikdə isə onlara kərpiclər betonlar və s. aiddir [5].

Karxanalarda və daş yonma sexlərində aparılan kəsmə işlərindən asılı olaraq, təbii daş tullantıları istehsalın 40-70%-ni təşkil edir [6]. Bu tip tullantılar əsasən betonda (onun müxtəlif növlərində), keramikada, sement, şüşə sənayesində geniş istifadə olunur [7].

Araşdırmalar zamanı müəyyən olunub ki, keramikada mərmər tozunun istifadəsi mümkündür. Burada CaO, istifadə zamanı xammala yavanlaşdırıcı kimi təsir edir [8].

Mütəxəsislərin fikrincə mərmər tozları keramik piltə istehsalında istifadə oluna bilər. Belə ki, mərmər tozunun 3-6% miqdarında istifadəsi zamanı məmulatın laxtalaşma temperaturunda müsbət nəticə əldə olunub və xammal xərcləri azalıb [9].

**İşin məqsədi.** Mövzumuz çərçivəsində təbii daşlar, onlarn istehsalı və istehlakı zamanı yaranan tullantıların keramik kərpic istehsalında istifadəsi xarakterikdir. Bunun üçün daş yonma sexlərindən təmin edilən əhəngdaşı tozu tullantısının, hazırlanan keramik nümunələrə təsiri araşdırılmışdır.

**Materiallar və tədqiqat üsulları.** Tədqiqat işinin yerinə yetirilməsində ilk növbədə keramik material üçün yararlı olan gil xammalı seçilmişdir. Bu gil xammalı Quba rayonunun Xınalıq ərazisindən təmin edilib. Şəkil 1 - də onun təsviri verilmişdir. Gil yatağından gətirilmiş gil istifadə edilməmişdən əvvəl laboratoriya dəyirmanında üyüdülmüşdür. İstifadə olunan gilin kimyəvi tərkibi təyin edilmiş və aşağıdakı cədvəldə qeyd edilmişdir.

İstifadə edilən əhəngdaşı tozu tullantısı isə daş yonma sexlərindən təmin edilmişdir. Aşağıdakı müvafiq cədvəl və şəkillərdə onun həm kimyəvi tərkibi, həmdə təsviri verilib.



**Şəkil 1.** Gil xammalı



**Şəkil 2**. Əhəngdaşı tullantısı tozu

**Cədvəl 1.**

**İstifadə olunan materialların kimyəvi tərkibi**

| Oksidlər | Materiallar | |
|---|---|---|
| | Daş tozu | Gil xammalı |
| $SiO_2$ | 8.20 | 58.15 |
| $Al_2O_3$ | 1.53 | 17.45 |
| $Fe_2O_3$ | 0.96 | 5.19 |
| CaO | 71.39 | 4.46 |
| MgO | 1.27 | 1.11 |
| $K_2O$ | - | 2.95 |
| $Na_2O$ | - | 1.12 |
| $SO_3$ | - | 0.26 |
| $TiO_2$ | - | 0.75 |
| $P_2O_5$ | - | 0.15 |
| MnO | 16.18 | 0.14 |
| YTİ | 0.47 | 0.36 |

Qeyd: YTİ 950 $^0$C -də uçan komponentlərin miqdarını bildirir:

**Cədvəl 2**

**Hazırlanan tərkiblər**

| Kod | Tərkibi | | Su (%) | Bişmə Temperaturu (%) |
|---|---|---|---|---|
| | Gil (%) | Əhəngdaşı tozu (%) | | |
| Baza tərkib | 100 | 0 | 24 | 900 |
| A | 95 | 5 | | |
| B | 90 | 10 | | |
| C | 80 | 20 | | |
| D | 70 | 30 | | |

**Cədvəl 3**

**Sınaq göstəriciəri**

| Nümunə adı | Sıxılmada möhkəmlik həddi (Mpa) | | | | Orta sıxlığı (qr/sm3) | Suhopma (%) |
|---|---|---|---|---|---|---|
| | ıı | ııı | ııı | orta | | |
| Baza tərkib | 13.1 | 13.2 | 13 | 13.1 | 0.23 | 10.9 |
| A | 13.8 | 13.7 | 13.8 | 13.8 | 0.21 | 10.4 |
| B | 14.3 | 14.3 | 14.4 | 14.3 | 0.18 | 10 |
| C | 13.6 | 13.7 | 13.7 | 13.7 | 0.19 | 9.8 |
| D | 13.6 | 13.5 | 13.6 | 13.6 | 0.19 | 10.1 |




**Nəticə və Təkliflər.** Aparılan ədəbiyyat araşdırması və yerinə yetirilən tədqiqat işi üzrə aşağıdakı nəticə və təkliflər tədqiqat işində qeyd edilir.

Azərbaycanda son vaxtlar tikinti sektorundakı inkişaflar, yeni yaşayış komplekslərinin salınması, eləcə də, tikinti materiallarının çoxlu istehsalı nəticəsində tullantılar yaranır. Yəni, birdəfəlik anlamalıyıq ki, tullantısız sənaye mövcud ola bilməz. Belə olan halda tullantıların təkrar istifadəsi, təkrar emal və enerjiyə qənaət kimi müvafiq utilizasiya formalarına üstünlük verilməlidir.

Ölkəmizə çoxlu miqdarda istifadəyə yararlı daş yataqları mövcuddur. Bu yataqların işlənilməsi zamanı kənara külli miqdarda tullantılar atılır. Həmçinin, bilirik ki, az mərtəbəli binaların hörülməsi və yüksək mərtəbəli binaların arakəsmələrində bu daşlar istifadə olunur. Bu binalarda da, yenidənqurma işləri zamanı daş tulallantılarının yaranması qaçınılmaz haldır.

Həmçinin qeyd edə bilərik ki, tullantıların yenidən istifadəsi həm utilizasiya məsələsinə, həm azalan xammal ehtiyaclarının ödənilməsinə, həm də enerji ehtiyatlarının daha səmərəli istifadəsinə həll yolu olacaqdır. Yəni, tullantıların inşaat materialları sənayesində yenidən istifadəsi ekoloji, iqtisadi səmərəlilikdə özünü tam doğruldur.

Yerinə yetirilən tədqiqat işi üzrə də, uğurlu nəticələr əldə edilib. Müəyyən olunmuşdur ki, əhəndaşı tozu tullantısının gil xammalına 5, 10, 20, 30% miqdarında daxil edilməsi nəticəsində alınan kərpic nümunələrinin möhkəmlikləri artır. Xüsusilə daha çox artım əhəngdaşı tozunun 10% miqdarında istifadəsi zamanı müşahidə olunub. Belə ki, tərkibi 100% gil, 0% əhəngdaşı olan nümunənin sıxılmada möhkəmliyi 13.1 MPa olduğu halda, tərkibi 90% gil, 10% əhəngdaşı tullantısı olan nümunənin möhkəmliyi isə 14.3 MPa olmuşdur.

Qeyd edək ki, orta sıxlıq, suhopma və s. sınaq göstəriciləri də, müsbət nəticə verdiyi üçün optimal tərkib olaraq əhəngdaşı tozunun gil xammalında 10% miqdarında istifadəsi yararlı hesab edilir.

## Ədəbiyyat

1. Ömer, Özkan Sofyanlı;, Silis Dumanı Katkılı Geri Kazanılmış Agregalı Betonların Özelliklerinin İncelenmesi, İstanbuul: Yüksek lisans tezi, 2015.
2. Sev, A;, Sürdürülebilir Mimarlık, İstanbul, 2009.
3. Özlem, Çelik;, Uçucu Kül, Silis Dumanı Ve Atık Çamur Katkılarının Çimento Dayanımlarına Etkileri, 2004, istanbul.
4. Şirinzadə, İ N;, Materialşünastlıq, Bakı, 2018.

5. Seyfullayev, X Q; Quliyev, C A; Hüseynli, E Ə;, Daş konstruksiyaları və antiseysmik tədbirlər, Bakı, 2000.
6. Nazife, Ural; Gökhan, Yakşe;, tık Mermer Parçalarının Yol Temel Malzemesi Olarak Değerlendirilmesi, Bilecik, 2015.
7. A. Gökhan və K. İzzet, Doğaltaş Üretim ve İşleme Tesisi Atıklarının Değerlendirilmesi., Trabzon, 2020.
8. Edinç, Abi; Ömer, Faruk;, Mermer Tozu Katkısı Ve Öğütmenin Tuğla Özelliklerine Etkis, Afyon.
9. Nadir, Köstebekçi; Muharrem, Uzun;, Mermer Kesim Ve Frit Atıklarının Porselen Karo Bünyelerinde Beraber Kullanımı, Afyon.

# Heliotermik emal üsulu ilə monolit beton

**ƏKBƏROVA S.M,** Azərbaycan Memarlıq və İnşaat Universiteti, dosent t.e.n., Bakı ş.

sev10@rambler.ru

**Şahmaov V.U,** Azərbaycan Memarlıq və İnşaat Universiteti, dosent t.e.n., Bakı ş.

vshahmarov@gmail.com

**Sultanov Ə.Ş,** Azərbaycan Memarlıq və İnşaat Universiteti, magistrant, Bakı ş.

elisultanov1899@gmail.com

**Xülasə.** Aparılmış təcrübə zamanı müəyyən edilmişdir ki, heliotermik emal üsulu ilə monolit betonun xassələrini yaxşılaşdırmaq mümkün olmuşdur. Sika 777 əlavəsini 1.1 %-lə istifadə etməklə və masterkure 215 plyonkaəmələgətiricisini betonun səthinə çəkməklə onun möhkəmliyi 35 Mpa-dan 38 Mpa-la qaldırılmışdır.

**Açar sözlər:** Monolit beton,heliotermik,betona qulluq,isti və soyuq iqlim

**Abstract.** During the conducted experiment, it was determined that it was possible to improve the properties of monolithic concrete by the heliothermic processing method. By using Sika 777 admixture at 1.1% and applying masterkure 215 film primer on the concrete surface, its strength was increased from 35 Mpa to 38 Mpa.

**Keywords:** Monolithic concrete, heliothermic, concrete maintenance, hot and cold climate.

**Giriş**. Respublikamızda tikinti sahəsi dünyada olduğu kimi sürətlə inkişaf etməkdədir. Buna görə də, ölkəmizdə tikinti materiallarına və özəlliklə beton qarışığına olan tələbat artmaqdadır.

Son illər monolit üsulu ilə tikilən bina və qurğuların miqyasının artırılmasına yönəldilmiş ciddi addımlar monolit betonun inkişafına böyük təkanlar vermişdir. Monolit betonun tətbiq sahələrinin daha geniş və səmərəli istifadə olunmasında bir çox problemlər (quru-isti iqlim şəraitində betonun su itkisi,çatəmələgəlmə, möhkəmlik həddinin azalması, suhopmasınınartması və s.) ortaya çıxır[1].

Betonun istilik emalından hələ qədim zamanlardan istifadə olunur, lakin bu texnologiyanın zavod şəraitində beton məmulatlarının istehsalını sürətləndirmək məqsədilə, həm də monolit beton qurğularının tikinti müddətini qısaltmaq, eləcədə ilin soyuq aylarında tətbiq olunması geniş vüsət almışdır[2].

Qışda monolit konstruksiyaların ucaldılması zamanı konstruksiyalarda betonun kritik möhkəmliyə çatana qədər donmasının qarşısını almaq üçün təşkilati və texniki tədbirlər həyata keçirilməlidir. Qış şəraiti xarici havanın aşağı müsbət və mənfi temperaturu ilə xarakterizə olunur ki, bu da güclü küləklərin olması şəraitində beton işləri yerinə yetirərkən əmək məhsuldarlığının əhəmiyyətli dərəcədə azalmasına, iş üsullarının dəyişdirilməsinə, tikinti materialları və enerji resursları kimi əlavə xərclərə səbəb olur [3].

Monolit beton texnologiyasında problemlərin aradan qaldırılması bu gün qarşıda duran ən aktual və mühüm vəzifələrdəndir. Belə ki, əlavə kimi "Sika 777" plastikləşdirici və parafin emulsiya əsaslı "MasterKure 215" plyonkaəmələgətiricisi istifadə etmişik. Tətbiq edilən əlavələrin xassələri cədvəl 1-də verilmişdir.

**Cədvəl 1.**

**İstifadə edilən əlavələrin xarekteristikaları.**

| Göstəricilər | Əlavələr | |
|---|---|---|
| | Sika 777 | MasterKure® 215 |
| Materialın stukturu | poli-karboksilat əsaslı | Parafin emulsiya əsaslı |
| Alışma temperaturu | - | - |
| Təbəqə görüntüsü | - | Şəffaf, hamar təbəqə |
| Tətbiq olunma temperaturu | - | +5°C-dən yuxarı |
| Temperatur müqavimət həddi | - | +5°C....+40° |
| Sıxlığı | 1.04 kq/litr | ~ 0.97 kq/litr |
| Rəngi | Qəhvəyi | Ağ |
| pH dəyəri | 4-7 | - |

Beton qarışığında yapışdırıcı kimi Norm sement zavodunun istehsalı olan EN 197 standartın tələblərinə uyğun olan SEM II A/P 42.5 R aktivlikli portlandsementdən istifadə edilmişdir.Tədqiqat işində istifadə edilən portlandsementin keyfiyyəti EN 196 standartın tələblərinə uyğun olaraq sınaqlardan keçirilmiş və göstəriciləri cədvəl 2-də qeyd edilmişdir.

**Cədvəl 2**

**İşdə istifadə olunan sementin göstəriciləri.**

| Göstəricilər | Ölçü vahidi | Xarakteristikası |
|---|---|---|
| Sementin orta sıxlığı | $kq/m^3$ | 1005 |
| Sementin həqiqi sıxlığı | $qr/sm^3$ | 3.1 |
| Sementin normal qatılığı | % | 29.2 |
| Sementin tutmasının başlanğıcı | Dəq | 3 |
| Sementin tutmasının sonu | Saat | 5 |
| Sementin narınlığı | % | 0.2 |
| Sementin əyilmədə möhəmlik həddi | MPa | 5.7 |
| 2 günlük SMH | MPa | 27 |
| 28 günlük SMH | MPa | 51 |

Xırda doldurucu kimi qumdan istifadə edilmişdir. Qum, EN 933 və EN 1097 standartlarının tələblərinə uyğun olaraq sınaqlardan keçirilmiş və keyfiyyət göstəriciləri cədvəl 3 və 3.1-də qeyd edilmişdir.

**Cədvəl 3**

**İstifadə edilən qumun keyfiyyət xarakteristikaları.**

| Göstəricilər | Vahidi | Miqdar |
|---|---|---|
| Qumun orta sıxlığı | kq/m$^3$ | 1340 |
| Qumun həqiqi sıxlığı | qr/sm$^3$ | 2.68 |
| Qumun gillik hissəcikləri | % | 1.2 |
| Qumun nəmliyi | % | 5.67 |
| Qumun suhopması | % | 2 |
| Qumun irilik modulu | | 2.7 |

**Cədvəl 3.1**

**Müəyyən miqdarda götürülmüş qumun ələk analizi.**

| Əl.ölç | əl.-də qal. | əl-də tam qalıq | ə.t.q %-lə | ə.keçən %-lə |
|---|---|---|---|---|
| 11.2 mm | 0.0 | 0.0 | 0.0 | 100.0 |
| 8 mm | 21.0 | 21.0 | 1.9 | 98.1 |
| 5.6 mm | 76.0 | 97.0 | 8.6 | 91.4 |
| 4 mm | 69.0 | 166.0 | 14.7 | 85.3 |
| 2 mm | 91.0 | 257.0 | 22.8 | 77.2 |
| 1 mm | 53.0 | 310.0 | 27.5 | 72.5 |
| 0.5 mm | 98.0 | 408.0 | 36.2 | 63.8 |
| 0.25 mm | 467.0 | 875.0 | 77.7 | 22.3 |
| 0.125 mm | 195.0 | 1070.0 | 95.0 | 5.0 |
| 0.063 mm | 43.0 | 1113.0 | 98.8 | 1.2 |
| Tava | 13.0 | 1126.0 | 100.0 | 0.0 |

Beton qarışığında istifadə edilən qırmadaş EN 933 və EN 1097 standartlarının tələblərinə uyğun olaraq standartlardan keçirilmiş və keyfiyyət göstəriciləri cədvəl 4-də verilmişdir.

**Cədvəl 4**

**İstifadə edilən qırmadaşın keyfiyyət göstəriciləri.**

| Göstəricilər | Vahidi | Xarakteristikaları |
|---|---|---|
| Qırmadaşın orta sıxlığı | kq/m$^3$ | 1340 |
| Qırmadaşın həqiqi sıxlığı | qr/sm$^3$ | 2.68 |

| | | |
|---|---|---|
| Qırmadaşın gillik hissəcikləri | % | 0.4 |
| Qırmadaşın fraksiyası | % | 5-25 |
| Qırmadaşın markası | % | >1000 |

Beton bir çox təsirlərə qarşı dayanıqlılığı ilə seçilsə də, müxtəlif iqlim şəraitləri nəticəsində onda bir sıra fiziki-mexaniki xassələrin pozulması baş verir. Bu pozuntuları aradan qaldırmaq üçün isti və soyuq temperatur şəraitində monolit betona qulluq qaydaları hökmən nəzərə alınmalıdır. İsti iqlim şəraitində monolit betonun mühafizə yollarından biri də plyonkaəmələgətiricilərdir. Plyonkaəmələgətiricilər betonun səthinə çəkilərək nazik örtük təbəqə yaradır. Yüksək temperaturlarda hidrotasiyanın sürətli getdiyi və çatlar əmələ gəldiyi üçün plyonkaəmələgətiricilər betonda bu təbəqəni yaradaraq böyük rol oynayır. Aparılan təcrübədə plyonkaəmələgətirici kimi parafin emulsiya əsaslı MasterKure2015 əlavəsindən istifadə edilmişdir. Təcrübə B25 markalı adi beton və əlavəli beton üzərində müqayisəli şəkildə aparılmışdır. Qarışığı hazırlamaq üçün yapışdırıcı kimi Norm sement zavoundan təmin edilmiş aktivliyi CEM II-A/P 42.5R olan portlandsementdən istifadə olunmuşdur. Əlavə kimi isə "Sika 777" plastikləşdiricisindən tətbiq edilmişdir. Beton qarışığının hazırlanmasında iştirak edən doldurucular standartların tələbinə əsasən sınanılmışdır. Əvvəlcə qatqısız beton, qatqısız beton və plyonkaəmələgətirici, sonra isə əlavəli beton, əlavəli beton və plyonkaəmələgətirici (kür materialı) tərkibləri işlənərək hazırlanmış və hər birinə uyğun olaraq 3,7 və 28 günlük sıxılmada möhkəmlikləri sınanılmışdır.

**Cədvəl 5**

**Hazırlanan beton qarışığının təcrübi göstəriciləri.**

| **Adı** | **Tərkibi (%)** | | **Konusun çökməsi (sm)** | **Orta sıxlıq (kq/m³)** |
|---|---|---|---|---|
| | Sika 777 | MasterKure® 215 | | |
| A1 | - | - | 19.5 | 2397 |
| AK1 | - | Səthə çəkilib | 19.5 | 2407 |
| Ə1 | 1.1 | - | 22 | 2427 |
| ƏK1 | 1.1 | Səthə çəkilib | 22 | 2430 |

**Cədvəl 6**

**Hazırlanan tərkiblərin sıxılmada möhkəmlik göstəriciləri.**

| **Adı** | **Sıxılmada möhkəmlik həddi (MPa)** | | |
|---|---|---|---|
| | **3 gün** | **7 gün** | **28 gün** |

| | I | II | III | orta*0.95 | I | II | III | orta*0.95 | I | II | III | orta*0.95 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| A1 | 25.65 | 25.70 | 25.72 | 24.39 | 33.60 | 32.00 | 32.41 | 31.04 | 40.26 | 42.51 | 43.14 | 39.87 |
| AK1 | 26.03 | 27.08 | 27.04 | 25.23 | 35.00 | 33.96 | 35.77 | 33.16 | 41.49 | 46.36 | 47.11 | 42.74 |
| Ə1 | 25.49 | 24.89 | 24.82 | 23.93 | 31.72 | 31.52 | 30.95 | 29.83 | 38.32 | 38.40 | 38.53 | 36.50 |
| ƏK1 | 26.19 | 27.12 | 27.08 | 25.32 | 33.48 | 32.42 | 34.02 | 31.64 | 40.04 | 41.24 | 39.30 | 38.18 |




Burada uyğun olaraq,

A1- Əlavəsiz beton

AK1- Əlavəsiz beton və plyonkaəmələgətirici

Ə1- Əlavəli beton

ƏK1- Əlavəli beton və plyonkaəmələgətiricinin göstəriciləridir.

**Cədvəl 7**

**7 günlük möhkəmliyi sınanılmış nümunələrin kimyəvi tərkibi, -% - lə.**

| **Nümunələrin şərti adları** | $Na_2O$ | $MgO$ | $Al_2O_3$ | $SiO_2$ | $P_2O_5$ | $SO_3$ | $K_2O$ | $CaO$ | $TiO_2$ | $MnO$ | Cl | $Fe_2O_3$ | YTİ |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Əlavəsiz beton | 1.37 | 1.42 | 5.56 | 33.78 | 0.01 | 2.69 | 0.91 | 41.93 | 0.01 | 0.01 | 0.01 | 3.69 | 0.01 |
| Əlavəsiz beton+Masterkure215 | 1.12 | 1.74 | 6.51 | 35.70 | 0.01 | 2.33 | 0.88 | 38.92 | 0.52 | 0.01 | 0.01 | 4.95 | 0.01 |

Burada YTİ – 950 $^0C$ temperaturda uçan komponentlərin miqdarını bildirir.

**Cədvəl 8**

**7 günlük möhkəmliyi sınanılmış nümunələrin mineraloji tərkibi, -% - lə**

| **Nümunələrin şərti adları** | $Ca(OH)_2$ (portlandit) | $Ca_5Si_6O_{16}(OH)_2$ (reversid) | $Ca_2SiO_4$ (larnit) | $CaSO_4$ x $2H_2O$(gips) | $SiO_2$ (α-kvars) | $CaAl_2Si_4O_{12} \cdot 2H_2O$ (wairakite) | Amorf |
|---|---|---|---|---|---|---|---|
| Əlavəsiz beton | 23 | 15 | 17 | 5 | 15 | 15 | 10 |
| Əlavəsiz beton+ Masterkure215 | 22 | 17 | 15 | 4 | 22 | 10 | 10 |

**Cədvəl 9**

**28 günlük möhkəmliyi sınanılmış nümunələrin kimyəvi tərkibi, -% - lə**

| Nümunələrin şərti adları | $Na_2O$ | MgO | $Al_2O_3$ | $SiO_2$ | $SO_3$ | $K_2O$ | CaO | $TiO_2$ | $Fe_2O_3$ | YTİ |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1.1 %-li Sika 777+Masterkure 215 | 2,17 | 2,09 | 9,96 | 44,24 | 1,67 | 1,79 | 28,13 | 0,45 | 5,27 | 4,2 |
| Əlavəsiz beton+ Masterkure215 | 1,73 | 2,23 | 8,63 | 39,25 | 1,96 | 1,56 | 34,66 | 0,66 | 3,97 | 5,3 |

**Cədvəl 10**

**28 günlük möhkəmliyi sınanılmış nümunələrin mineraloji tərkibi, -% - lə.**

| Nümunələrin şərti adları | $Ca(OH)_2$ (portlandit) | $SiO_2$ (α-kvars) | $CaSO_4$ x $2H_2O$(gips) | $CaAl_2(Si_2Al_2)O_{10}(OH)_2$ (marqanit) | $Fe_2O_3$ (hematit) | Vulkan külü |
|---|---|---|---|---|---|---|
| 1.1 %-li Sika 777+Masterkure 215 | 10 | 19 | 3 | 48 | 5 | 15 |
| Əlavəsizbeton+ Masterkure215 | 15 | 17 | 3 | 46 | 4 | 15 |

**Ədəbiyyat**

1.И.М.Јусуфов Бетон вə дəмир-бетон мə`мулатларын технолокијсы Бакы -1977, 335 сс

2.Венюа М. Цементы и бетоны в строительстве. М.: Стройиздат, 1980, 168 сс

3.Березовский Б.И Возведение монолитных конструкций зданий и сооружений. М.: Стройиздат,1981, 335 сс

# SÜRÜŞMƏ SAHƏLƏRİNİN ŞƏHƏR PLANLAŞDIRMASIMA TƏSİRİ

**HƏSƏNLİ ADİL**
Bakı Mühəndislik Universiteti
Memarlıq və İnşaat/Şəhərsalma
*hasanliadil22@gmail.com*
BAKI, AZƏRBAYCAN

## 5. XÜLASƏ

Torpaq sürüşmələri dünyada baş verən ən çox yayılmış təbii fəlakətlərdən biridir. Bir çox hallarda sürüşmə xəbərdarlıq edilmədən baş verə bilər və nəticələri xüsusilə şəhər yerlərində dağıdıcı ola bilər. Torpaq sürüşmələri, yamacda yerin ayrılması və aşağıya doğru hərəkət etməsi nəticəsində baş verən təbii fəlakət növüdür. Onlara müxtəlif amillər, o cümlədən güclü yağışlar, zəlzələlər, vulkan püskürmələri və digər geoloji və ətraf mühit amilləri səbəb olur. Sürüşmələr insanların həyatına və əmlakına ciddi ziyan vura bilər, eyni zamanda şəhərin planlaşdırılmasına və inkişafına böyük təsir göstərə bilər.Şəhər planlaşdırılması şəhər ərazilərinin layihələndirilməsi və inkişafı prosesidir. O, funksional və dayanıqlı şəhər mühiti yaratmaq üçün nəqliyyat, mənzil və infrastruktur kimi müxtəlif elementlərin koordinasiyasını əhatə edir. Torpaq sürüşmələri şəhərlərin dizaynına və inkişafına əhəmiyyətli dərəcədə təsir göstərə bilər və şəhər planlayıcıları şəhər ərazilərinin layihələndirilməsi və inkişafı zamanı sürüşmə ilə bağlı riskləri nəzərə almalıdırlar.Sürüşmələrin şəhər planlaşdırılmasına təsirləri müxtəlif yollarla görünə bilər. Bu yazıda biz sürüşmələrin şəhər planlaşdırılmasına necə təsir etdiyini və sürüşmə ilə bağlı riskləri azaltmaq üçün şəhər planlaşdırıcılarının hansı tədbirləri görə biləcəyini araşdıracağıq.

**6. AÇAR SÖZLƏR: Torpaq sürüşmələri , şəhər əraziləri , şəhər planlaşdırılması**

## 7. SUMMARY

Landslides are one of the most common natural disasters in the world. In many cases, landslides can occur without warning and the consequences can be devastating, especially in urban areas. Landslides are a type of natural disaster that occurs as a result of the separation of the ground and downward movement of the slope. They are caused by a variety of factors, including heavy rains, earthquakes, volcanic eruptions, and other geological and environmental factors. Landslides can cause serious damage to people's lives and property, and at the same time have a great impact on urban planning and development. Urban planning is the process of designing and developing urban areas. It involves the coordination of various elements such as transport, housing and infrastructure to create a functional and sustainable urban environment. Landslides can significantly affect the design and development of cities, and urban planners must consider the risks associated with landslides when designing and developing urban areas. The effects of landslides on urban planning can be seen in a number of ways. In this article, we will explore how landslides affect urban planning and what measures urban planners can take to reduce the risks associated with landslides.

**KEY WORDS**: **Landslides, urban areas, urban planning**

## 8. GİRİŞ

Uzun illərdir ki, Bakıda torpaq sürüşmələri təkrarlanan problemdir. Şəhərin coğrafiyası və geologiyası onu sürüşmələrə meylli edir, lakin qeyri-sabit yamaclarda tikinti və drenaj sistemlərinin lazımi səviyyədə saxlanmaması kimi insan fəaliyyəti də sürüşmələrin baş verməsinə səbəb ola bilər.

Sürüşmələrin şəhər planlaşdırılmasına təsiri əhəmiyyətli ola bilər. Sürüşmələr yollar, binalar və digər tikililər də daxil olmaqla şəhərlərin fiziki planına təsir göstərə bilər. Onlar həmçinin iqtisadiyyata, ətraf mühitə və sakinlərin təhlükəsizliyinə təsir göstərə bilər. Sürüşmələrin şəhər planlaşdırılmasına təsir göstərə biləcəyi əsas yollardan bəziləri bunlardır:

- İnfrastrukturun zədələnməsi

Sürüşmələr yollar, körpülər və binalar da daxil olmaqla infrastruktura ciddi ziyan vura bilər. Bu, nəqliyyat, rabitə və digər vacib xidmətləri poza bilər və təcili yardım xidmətlərinin təsirlənmiş ərazilərə çatmasını çətinləşdirir. Şəhər planlaşdırıcıları torpaq sürüşmələrinin təsirinə tab gətirə bilməsini təmin etmək üçün infrastrukturun layihələndirilməsi və inkişaf etdirilməsi zamanı sürüşmə potensialını nəzərə almalıdırlar.

- Ətraf Mühitin Deqradasiyası

Sürüşmələr də ətraf mühitə ciddi təsir göstərə bilər. Onlar təbii yaşayış mühitinə zərər verə bilər, torpaq eroziyasına səbəb ola bilər və su mənbələrini çirkləndirə bilər. Bu, yerli ekologiyaya uzunmüddətli təsir göstərə bilər ki, bu da sakinlərin sağlamlığına və rifahına təsir edə bilər. Şəhər planlaşdırıcıları şəhər ərazilərini inkişaf etdirərkən sürüşmələrin ətraf mühitə potensial təsirini nəzərə almalıdırlar.

- İqtisadi Təsir

Torpaq sürüşmələri iqtisadiyyata, xüsusən də turizm və ya kənd təsərrüfatına əsaslanan ərazilərdə əhəmiyyətli təsir göstərə bilər. Torpaq sürüşmələri infrastruktura ziyan vura, nəqliyyatı poza və maddi ziyana səbəb ola bilər. Bu, yerli iqtisadiyyata təsir edə bilər və iş yerlərinin itirilməsi və iqtisadi aktivliyin azalması ilə nəticələnə bilər. Şəhər planlaşdırıcıları şəhər ərazilərini inkişaf etdirərkən sürüşmələrin potensial iqtisadi təsirini nəzərə almalıdırlar.

- Təhlükəsizlik Riskləri

Torpaq sürüşmələri də sakinlər üçün ciddi təhlükə yarada bilər. Onlar yaralanmalara, ölümlərə və maddi ziyana səbəb ola bilər. Şəhər planlaşdırıcıları şəhər ərazilərini inkişaf etdirərkən sürüşmə ilə bağlı potensial təhlükəsizlik risklərini nəzərə almalıdırlar.

Sürüşmələrin şəhər ərazilərinə təsiri ağır ola bilər. Sürüşmələr binalara, yollara və digər kritik infrastruktura zərər verə, nəqliyyat və kommunikasiya sistemlərini sıradan çıxara bilər. Onlar həm də həyat itkisinə və əhəmiyyətli maliyyə itkilərinə səbəb ola bilər. Bundan əlavə, sürüşmələr ətraf mühitə uzunmüddətli təsirlər göstərə bilər, o cümlədən landşaftın dəyişməsi, torpaq eroziyası və bitki örtüyünün zədələnməsi.

Şəhərsalmaçılar planlaşdırma proseslərində sürüşmə potensialını nəzərə almalıdırlar. Sürüşmə sahələrinin planlaşdırılması geoloqları, mülki mühəndisləri, ətraf mühit üzrə alimləri və şəhərsalmaçıları cəlb edən hərtərəfli və multidissiplinar yanaşma tələb edir. Məqsəd sürüşmənin potensial təhlükələrini və onların təsirini yumşaltmaq üçün ən yaxşı üsulları nəzərə alan hərtərəfli plan hazırlamaqdır.

Sürüşmələrin təsirini minimuma endirməyin əsas yollarından biri torpaqdan istifadənin səmərəli planlaşdırılmasıdır. Sürüşmələrə meylli ərazilərdə planlaşdırıcılar qeyri-sabit yamaclarda binaların və digər strukturların tikintisinin qarşısını almaq üçün inkişafı tənzimləməlidirlər. Onlar həmçinin ərazinin mövcud topoqrafiyasını nəzərə almalı və buna uyğun olaraq planlaşdırmalıdırlar. Məsələn, planlaşdırıcılar sürüşmələrin qarşısını almaq və ya təsirlərini minimuma endirmək üçün yollar, körpülər və istinad divarları kimi infrastruktur layihələndirə bilər.

Bundan əlavə, şəhər planlaşdırıcıları iqlim dəyişikliyinin sürüşmələrə təsirlərini nəzərə almalıdırlar. Qlobal temperatur yüksəldikcə, hava şəraiti daha gözlənilməz olur və ekstremal hava hadisələri daha çox yayılır. Torpaq sürüşmələrinin ümumi tətikçisi olan güclü yağış hadisələri dünyanın bir çox yerində daha tez-tez baş verir. Beləliklə, planlaşdırıcılar infrastrukturu layihələndirərkən və torpaqdan istifadə planlarını hazırlayarkən bu hadisələrin potensial təsirlərini nəzərə almalıdırlar.

Yaşıl infrastrukturun birləşdirilməsi də sürüşmələrin təsirini azaltmaq üçün təsirli bir yol ola bilər. Yaşıl infrastruktur yamacları sabitləşdirməyə, eroziyanın qarşısını almağa və suyu udmağa kömək edə bilən bitki örtüyü kimi təbii sistemlərə aiddir. Yaşıl infrastrukturun şəhərsalma prosesinə daxil edilməsi sürüşmə riskini azaltmağa, suyun keyfiyyətini yaxşılaşdırmağa və digər ekoloji faydaları təmin etməyə kömək edə bilər. Məsələn, planlaşdırıcılar yamacları sabitləşdirmək və sürüşmənin qarşısını almaq üçün terras və bitki örtüyünün istifadəsini nəzərdən keçirə bilər.

Torpaqdan istifadənin planlaşdırılmasına əlavə olaraq, sürüşmələrin təsirini minimuma endirmək üçün fəlakətlərin idarə edilməsinin effektiv planlaşdırılması vacibdir. Şəhərin sürüşmələrə tez və effektiv reaksiya verməyə hazır olmasını təmin etmək üçün fövqəladə hallara cavab planları hazırlanmalıdır. Bu planlara təsirə məruz qalan ərazidə sakinlərin təxliyəsi və sığınacaq, qida və su kimi təcili yardımların göstərilməsi tədbirləri daxil edilməlidir.

Sürüşmə riskini azaltmağın bir neçə yolu var, o cümlədən:

- Bitki örtüyünün idarə edilməsi:

Yamaclarda bitki örtüyünün əkilməsi və saxlanması torpağın sabitləşməsinə və sürüşmə riskini azaltmağa kömək edə bilər.

- Drenajın idarə edilməsi:

Effektiv drenaj idarəetməsi torpaqdan artıq suyu çıxararaq sürüşmə riskini azaltmağa kömək edə bilər.

- Monitorinq və xəbərdarlıq sistemləri:

Monitorinq və xəbərdarlıq sistemləri potensial sürüşmələri aşkar etməyə və icmalara erkən xəbərdarlıq etməyə kömək edə bilər ki, onlar evakuasiya edə və ya digər zəruri tədbirlər görə bilsinlər.

- Mühəndislik həlləri:

İstinad divarları kimi mühəndis həlləri yamacları sabitləşdirməyə və sürüşmə riskini azaltmağa kömək edə bilər.

Şəhər planlaşdırıcıları sürüşmə ilə bağlı riskləri azaltmaq üçün müxtəlif tədbirlər görə bilər. Görülə bilən əsas tədbirlərdən bəziləri bunlardır:

- Ərazi seçimi

Şəhər planlaşdırıcıları sürüşmələrə meylli ərazilərdə yerləşməmələrini təmin etmək üçün inkişaf üçün yerləri diqqətlə seçməlidirlər. Bu, geotexniki tədqiqatların aparılmasını və sahə ilə bağlı potensial risklərin qiymətləndirilməsini əhatə edə bilər.

- Bina Dizaynı

Şəhər planlaşdırıcıları binaların sürüşmənin təsirinə davamlı olmasını təmin etməlidirlər. Bu, sürüşməyə davamlı materiallardan istifadəni və sürüşmə ilə əlaqəli qüvvələrə tab gətirə bilən binaların layihələndirilməsini əhatə edə bilər.

- İnfrastruktur Dizaynı

Şəhər planlaşdırıcıları həmçinin infrastrukturun sürüşmənin təsirinə tab gətirmək üçün layihələndirilməsini təmin etməlidirlər. Bu, güclü yağışlara dözə bilən drenaj sistemlərinin layihələndirilməsini və torpaq eroziyasının qarşısını almaq üçün istinad divarlarının tikintisini əhatə edə bilər.

- Torpaqdan İstifadə Planlaması

Şəhər planlaşdırıcıları şəhər ərazilərini inkişaf etdirərkən torpaqdan istifadəni diqqətlə nəzərdən keçirməlidirlər. Bu, inkişafın sürüşməyə daha az meylli olan ərazilərdə yerləşməsini təmin etmək üçün yaşayış, kommersiya və ya sənaye kimi xüsusi istifadə üçün ərazilərin rayonlaşdırılmasını əhatə edə bilər.

Şəhər planlaşdırıcıları həmçinin sürüşmələri aşkar etmək və onlara reaksiya vermək üçün monitorinq və erkən xəbərdarlıq sistemlərini inkişaf etdirməlidirlər. Bu, potensial sürüşmə təhlükələrini izləmək üçün peyk şəkilləri və radar kimi məsafədən zondlama texnologiyasından istifadəni və sürüşmə zamanı sakinləri xəbərdar etmək üçün erkən xəbərdarlıq sistemlərinin işlənməsini əhatə edə bilər.

## 9. TƏDQİQAT METODU

Təqiqatın metodikası – tədqiqatın metodikası işin məqsədinə və vəzifələrinə uyğun olaraq aparılır.
- yerli və xarici ədəbiyyat mənbələrinin araşdırılması, metodiki sənədlərin, naturadan təftiş etmə, qrafo-analitik sxemlərin qurulması, arxiv sənədlərinin müqayisəli təhlili;
- funksiyaları nəzərə alınmaqla sistemləşdirilməsi;

Təqdim olunan işin əsasını sistemli, mühit və aksioloji (maddi və mənəvi dəyərlər haqqında elm) yanaşmaların prinsip və metodları təşkil edir.İstifadə olunan metodologiya: müsahibələr, sorğular, demoqrafik analiz, risklər və ya təhdidlər, tarixi və müasir məlumatlar, nəşrlər, kitablar və digər.

## 10. NƏTİCƏ

Torpaq sürüşmələri insanların həyatı və əmlakı üçün əhəmiyyətli təhlükə yaradan təbii təhlükədir. Sürüşmələr şəhərin planlaşdırılmasına və inkişafına əhəmiyyətli təsir göstərə bilər. Onlar infrastruktura zərər verə, iqtisadiyyatı poza və sakinlər üçün təhlükəsizlik riski yarada bilərlər. Şəhər planlaşdırıcıları şəhər ərazilərinin layihələndirilməsi və inkişafı zamanı sürüşmə ilə bağlı potensial riskləri nəzərə almalıdırlar. Bu, ərazinin seçilməsi, bina və infrastrukturun layihələndirilməsi, torpaqdan istifadənin planlaşdırılması, fövqəladə hallara hazırlıq və cavab tədbirləri, əhalinin maarifləndirilməsi, monitorinq və erkən xəbərdarlıq sistemlərini əhatə edə bilər. Bu, geoloqları, mülki mühəndisləri, ətraf mühit alimlərini və şəhərsalmaçıları cəlb edən multidissiplinar yanaşma tələb edir. Effektiv planlaşdırma zamanı torpaqdan istifadənin tənzimlənməsi, yaşıl infrastruktur, fəlakətlərin idarə edilməsinin planlaşdırılması, xalqın maarifləndirilməsini nəzərə alınmalıdır.

Bu tədbirləri görməklə şəhər planlaşdırıcıları sürüşmə ilə bağlı riskləri azaltmağa və təbii fəlakətlər qarşısında təhlükəsiz və davamlı olan funksional və davamlı şəhər mühiti yaratmağa kömək edə bilər.

## ƏDƏBİYYAT SİYAHISI

1 Məmmədov Q.Ş. Xəlilov M.Y. Ekoloqların məlumat kitabı. Elm. Bakı 2003. 5-8066-1512-X S.165

*2 Мележ Т.А., Павловский А.И.* Районирование территории города Гомеля по проявлению инженерно-геологических процессов экзогенной геодинамики // Известия Иркутского государственного университета.Сер. Науки о Земле. 2012. Т. 5, № 2. С.176-195.

3 *Мележ Т.А Павловский А.И.* Критерии оценкивыбора территорий для инженерного освоения // Вестник Брестского университета. Сер. 5. Химия. Биология. Науки о Земле. 2012а. № 2. С. 92-98.

4 *Мележ Т.А., Мележ А.А.* Инженерно геоэкологические показатели и критерии выбора территорий для выявления ограничения их освоения (на примере Республики Беларусь) // Вестник Воронежскогогосударственного университета. Геология.2012. Вып. 2. С. 225-229.

5 https://e-qanun.az/framework/31959 Azərbaycan Respublikasının ərazisində coğrafi koordinatları müəyyən edilmiş torpaq sürüşməsi təhlükəsi olan sahələrin xəritələrinin təsdiq edilməsi və bu sahələrdə tikinti işlərinin qadağan edilməsi haqqında Azərbaycan Respublikasının Nazirlər Kabineti qərarı.

# NAXÇIVANIN TARİXİ MEMARLIQ ABİDƏSİ "YUSİF KÜSEYR OĞLU TÜRBƏSİ" NİN KOMPOZİSİYA XÜSUSİYYƏTLƏRİ

**İLAHƏ BABAYEVA MUSA QIZI**
Bakı Mühəndislik Universiteti
Memarlıq və İnşaat fakultəsi, Memarlıq mühitinin dizaynı ixtisası
email: *ibabayeva1@std.beu.edu.az*
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Naxçıvan Muxtar Respublikasının əhəmiyyətli şəhərlərindən biri olan Naxçıvan, qədim zamanlardan bəri nadir memarlıq nümunələri ilə Yaxın Şərqdə tanınmışdır. Azərbaycanın tarixi memarlıq məktəblərindən biri olan Naxçıvan memarlıq məktəbinə aid tarixi memarlıq əsərləri ilə zəngindir.

Tarixi mənbələrdə Naxçıvan şəhərinin antik və orta əsrlərdə istehkamlı müdafiə sisteminə və qiymətli memarlıq abidələrinə malik şəhər olması ilə bağlı geniş məlumatlar verilmişdir.

Bu məqalədə Naxçıvan şəhərindəki tarixi memarlıq abidəsi "Yusif Küseyr oğlu türbəsi" nin memarlığı və kompozisiya xüsusiyyətləri araşdırılmışdır. XII əsrdən günümüzə gəlib çatmış Naxçıvan Memarlıq məktəbinin önəmli memarlıq əsəri olan "Yusif Küseyr oğlu türbəsi"nin gələcək nəsillərə ötürülməsi, dünyada tayı bərabəri olmayan bu abidənin tədqiq edilməsi, öyrənilməsi əhəmiyyətli və aktual məsələlərdəndir.

**AÇAR SÖZLƏR: Naxçıvan, Yusif Küseyr oğlu türbəsi, Kompozisiya xüsusiyyəti.**

**SUMMARY**

Nakhchivan, one of the important cities of Nakhchivan Autonomous Republic, has been known for its rare architectural examples since ancient times in the Middle East. It is rich historical architectural works belonging to Nakhchivan school of architecture, which is one of the historical architectural schools of Azerbaijan.

Extensive information has been given about the city of Nakhchivan having a fortified defense system and valuable architectural monument in ancient and middle ages.

In this article, the value of the historical architectural monument "Tomb of Yusif Kuseyr oglu" in the city of Nakhvhivan was investigated in terms of architecture and compositional characteristics. The important architectural work of the Nakhchivan School of Architecture has survived from the 12th century to the present day and the transfer Tomb of Yusif Kuseyr oglu to future generations, researching and studying and urgent issues which has no equal in the world.

**Keywords: Nakhchivan, Tomb of Yusif Kuseyr oglu, Composiyional characteristics.**

## GİRİŞ

Naxçıvan Muxtar Respublikasının əhəmiyyətli şəhərlərindən biri olan Naxçıvan, qədim zamanlardan bəri nadir memarlıq nümunələri ilə Yaxın Şərqdə tanınmışdır. Azərbaycanın tarixi memarlıq məktəblərindən olan Naxçıvan memarlıq məktəbinə aid tarixi memarlıq əsərləri ilə zəngindir.

Naxçıvan memarlıq məktəbinin banisi Əcəmi Əbubəkir oğlu Naxçıvaninin bizə qədər gəlib çatan ilk əsəri Yusif Küseyr oğlu türbəsidir. Bu türbə Naxçıvanın qülləvari türbələri içərisində xronoloji cəhətdən ən qədimi olan abidədir.[7] El arasında "Atababa günbəzi" kimi adlandırılan türbə Naxçıvan şəhərinin Şahab məhəlləsində yerləşir. Səkkizguşəli şəkildə olan türbə pramida şəkilli günbəzlə örtülmüşdür. Azərbaycanın qülləvari türbələri içərisində olan Yusif Küseyr oğlu türbəsi yeganə abidədir ki, üst pramida örtüyü yaradılışından 859 il keçməsinə baxmayaraq dövrümüzə kimi salamat qalmışdır. Qərb tərəfə baxan səthində yerləşən çatmatağ şəkilli giriş qapısı üzərində haşiyələr formasında verilmiş həmin hissə çıxıntılar vasitəsi ilə bir portal şəklini almış, "Bu türbə xoca Yusif Küseyr oğlunun məzarı üzərində hicri 557-ci ildə, yəni miladi 1162 - cil ildə tikildiyini" göstərən kitabə bu səthin yuxarı hissəsində yerləşdirilmişdir. Türbənin qülləsi iç və çöl taxçalarla işləndiyindən qalın dayaqlar şəklində olan künc hissələr karkas quruluşuna bənzəyən konstruktiv sistem yaradır. Bu quruluş abidənin xarici görünüşünün visual dayanıqlığını da gücləndirir.

Yusif Küseyr oğlu türbəsi iki qatlı olub, planda səkkizbucaqlı formadadır. Sərdabə hissəsi yer altına salındığından türbə xaricdən birqatlı qüllə kimi görünür. İlk baxışdan tutumunun həndəsi təmizliyi, nisbətlərin incəliyi və harmonik gözəlliyi ilə yadda qalır. Tübənin daxili bəzədilməmiş, əsas tikintisi və bəzək hörgüsü bir materialla – keyfiyyətli bişmiş kərpiclə işlənmişdir. Bu isə abidənin təmiz və aydın həndəsi biçiminin bütövlüyünü gücləndirir, ona vahid, ifadəli qırmızımtıl rəng verir.

Türbənin divarları keyfiyyətli bişmiş kərpiclə 80 santimetr qalınlığında hörülmüşdür. Bişmiş kərpic kvadrat şəkilli olmaqla, 20x20x4,5 santimetr ölçüdə götürülmüşdür.[8] Xarici həcmində piramidşəkilli hissənin üstü kərpiclə örtülmüş, daxili günbəzə isə yarım dairəvi görkəm verilmişdir. Nəticədə daxili və xarici örtmələr arasında müəyyən boşluq sahəsi qalmışdır. Beləliklə, burada Yaxın Şərq memarlığının türbə inşaatında tətbiq olunan ikitəbəqəli günbəz örtüyü ilə qarşılaşırıq. Türbənin xaici üzlərində taxçalar sadə kərpiclə çərçivələnmişdir. Tağçaların daxili tamamilə kərpicdən yığılmş sıx həndəsi ornamentlərlə üzlənmişdir. Burada səthlər isə bütün üzlərdə müxtəlif rəsmlərdən ibarət həndəsi ornamen təşkil edən kərpiclərlə örtülmüşdür.

Xarici səthlərindəki ornament bəzəyinin xüsusuiyyəti onun ayrıca düzəldilərək, hazır şəkildə üzlərin səthinə bərkidilimiş ayrı-ayrı tavalardan tərtib olunmasıdır. Ornamentlər kiçik kərpiclərdən quraşdırılmış, sonra gəc məhulu ilə tavalar şəklində birləşdirilərək səthlərin üzərində bərkidilmişdir. Türbənin kərpic dekorunun ən mürəkkəb və zəngin örnəkləri "girih"(düyün) adlanan xüsusi həndəsi ornamentlərlə yaradılmışdır. Səkkizguşəli olan Yusif Küseyr oğlu türbəsinin taxçaları mürəkkəb quruluşlu kərpic girih naxışlar sistemi ilə örtülmüşdür. Girih naxışlarını əmələ gətirən elementlər həndəsi formalardan ibarət olmuşdur. Bu formalara çoxbucaqlılar, ulduzlar və ya onların hissələri aid edilir. Yusif Küseyroğlu türbəsinin Azərbaycan memarlığında yeni mərhələ olmasının, memarlıq dekorunda girih naxışlarının rol oynamasıdır. Abidədə adi düz hörgünün kərpicli ornament bəzəyi ilə uyğunlaşdırılması nəticəsində qüvvətli bədii təsir yaranmışdır. Ornamentli tavaların qovuşuq yerləri diqqətlə hamarlandığından üzlərdən hər bir səth ayrı-ayrılıqda rəsminə görə fərqlənən bütöv xalçanı xatırladır.

Quruluş etibarilə abidənin qərb tərəfə baxan üzü fərqli şəkildə həll edilmişdir. Türbənin giriş qapısı burada yerləşdirilmişdir. Belə ki, türbənin bu səthi iki hissəyə ayrılmışdır: nisbətən batıq olan aşağı hissədə çatma tağ və onun üstündə isə iri həndəsi ornament yerləşdirilmişdir. Səthin yuxarı yarısını kufi xətti ilə yazılmış kitabə və onun üzərində həndəsi ornament zolağı tutmuşdur. Türbənin səthlərindən yuxarı hissə qurşaq şəklində ayrılmış və kərpiclərlə iri həcmli kitabə yazılmışdır. Kitabə hazırlanarkən, türbənin ornament bəzəyini zənginləşdirmək üçün ərəb əlifbasına məxsus şaquli hərflərin arasındakı boş sahələr həndəsi ornamentlərlə ustalıqla doldurulmuşdur. Öz incəliyi və dekorativliyi ilə bu kitabə zolağı gövdə ilə

[1]Naxçıvan Ensiklopediyası (II cild)

[2]Naxçıvan Abidələri Ensiklopediyası Naxçıvan-2008

piramidal örtük arasında bir ara yaradır. Şiş uclu piramidal örtük sanki bütöv prizmatik gövdəyə yox, yazı qurşağının incə şəbəkəsinə dayanır.[9]

Türbəni qərbdən çatmatağ şəkilli giriş qapısının baş tərəfində dörd sətirdə kitabə vardır (Şəkil 5). Abidənin təyinatı, kimin xatiəsinə tikilməsi, inşa tarixi haqqında dəqiq məlumat verən kitabənin mətninin tərcüməsi belədir: " Bu məqbərə xacə, adlı-sanlı rəis, dinin zəkası, islamın camalı, şeyxlər şeyxi Yusif İbn Küseyr əl – Niyazındır.Tarix:Şəvval, beş yüz əlli yeddinci il".[10]

Yusif Küseyr oğlu türbəsinin səthlərinin yuxarı hissəsi qurşaq şəklində ayrılaraq, orada iri hərflərlə böyük həcmli kitabə yerləşdirilmişdir (Şəkil 3). Kitabənin mətni Qurani – Kərimin III yəni Ali- İmran surəsindən götürülmüş 17, 18-ci ayələrdən və 19-cu ayənin kiçik bir hissəsindən ibarətdir. Bu surənin sonunda isə "Ya Allah!" sözü qeyd edilmişdir. Məqbərənin giriş qapısındn sol tərəfdəki səthinin baş tərəfində yerləşən kitabədə memar öz adını qeyd etmişdir: " Bənna Əcəmi Əbubəkir oğlu Nəşəvinin(Naxçıvaninin) əməlidir" (Şəkil4). Kitabədə memar adını" Nəşəvi" nisbəsi il təqdim etmişdir. Bunun səbəbi isə Nəşəvi, Nəşəva orta əsrlərdə Naxçıvan şəhərinin adlarından biri olmuşdur.

Yusif Küseyr oğlu türbəsi özünün düzgün mütənasibliyi, ornament bəzəyinin zənginliyi ilə böyük bədii təəssürat oyadır. Burada Memar ayrı-ayrı tərəflərin səthlərini ornament bəzəyindən məhrum künc kürəkləri vasitəsilə bölməklə, böyük kompozisiya həssaslığı yarada bilmişdir. Türbənin xarici səthindən fərqli olaraq daxili hissəsi bəzədilməmişdir.

Qərb tərəfindən pilləkənlərlə enərək daxil olunan sərdabə hissəsi isə ikiüzlü plana uyğun olaraq ortası yastı olan günbəzlə örtülmüşdür. Günbəzin yuxarı hissəsi kəsilmiş dairəvi xonça ilə tamamlanmışdır. Türbənin yuxarı kamerasının döşəməsində düzəldilmiş dairəvi baca onun altında yerləşən sərdabəyə açılır. Sərdabənin hündürlüyü yerdən üst mərtəbəyə qədər 2,5 metr olmaqla, içərisini diametri 6 metrdir. Məlumur ki, sərdabələr dəfn yerləri olub bir və ya bir neçə mərhumun dəfn olunması üçün hazırlanır. Hazırda Yusif Küseyr oğlu türbəsinin sərdabəsində qəbir yoxdur.[11]

1952 – ci ildə Yusif Küseyr oğlu türbəsi üzərində bərpa işlərinin aparılmasına başlanıldı. Abidənin kürsü hissəsi, sərdabəsi və naxışları bərpa edilmiş və çatlamış hisəlləri içərindən dəmir-beton qurşaqla bir-birinə bağlanmışdır. Beləliklə, deformasiya təhlükəsinin qarşısı alınmışdır. Yusif Küseyr oğlu türbəsinin bərpası 1957 – ci ildə başa çatmışdır. Sonrakı dövrlərdə isə türbənin bərpasına 2019- cu ilin iyun ayında başlanmışdır. Ətrafı dəmir- beton istinad divarı ilə bərkdilmiş və kərpiclə üzlənmişdir. Türbənin xarici və daxili, həmçinin sərdabə divarlarının aşınmış hissələri, həndəsi və nəbati naxışları ilk formasını saxlamaqla bərpa edilmişdir. Haşiyə və qapı üzərindəki kitabə yazıları bərpa olunmuş, açıq və qızılı rənglə boyanmışdır. Türbənin daxili hissəsindəki nəmliyin götürülməsi üçün günbəz hissədə və üst piramida örtüyündə nəfəsliklər açılmışdır.Abidənin qurşağında "Qurani- Kərim" in "Al-i İmran" surəsindən 17-19 – cu ayələr, tağı üzərində isə" Bənna Əcəmi Əbubəkir oğlu Naxçıvaninin əməlidir" sözləri yazılmışdır.

---

[3]Hacıfəxrəddin Səfərli Yusif Küseyr oğlu türbəsi, Naxçıvan:"Əcəmi" Nəşriyyat- Poliqrafiya Birliyi,2021,36 səh.
[4]Hacıfəxrəddin Səfərli Yusif Küseyr oğlu türbəsi, Naxçıvan:"Əcəmi" Nəşriyyat- Poliqrafiya Birliyi,2021,36 səh.
[5] Naxçıvan Abidələri Ensiklopediyası Naxçıvan-2008




**Şəkil 1.** Yusif Küseyr oğlu məqbərəsi(türbəsi), XII əsr tarixi-memarlıq abidəsi



**Şəkil 2.** Yusif İbn Küseyr oğlu türbəsinin fasadı



**Şəkil 3**. Yusif Küseyr oğlu türbəsinin səthlərinin yuxarı qurşaq hissəsi



**Şəkil 4**. Məqbərənin giriş qapısındn sol tərəfdəki səthinin baş tərəfində yerləşən kitabə



**Şəkil 5**. Türbəni qərbdən çatmatağşəkilli giriş qapısının baş tərəfində yerləşən dörd sətirdə kitabə



**Şəkil 7**. Türbəninin səthində yerləşən həndəsi ornament bəzəyi

## TƏDQİQAT METODU

Naxçıvan şəhərində yerləşən tarixi memarlıq abidəsi Yusif Küseyr oğlu türbəsinə gedilmiş və araştırmalar aparılmışdır. Türbənin fasad və daxilində fotoqraflar çəkilmiş, ölçülər götürülmüşdür. Daha sonra isə bu haqda yazılan kitab, jurnal, məqalə və materialların elektron variantlarından da məlumatlar əldə edilmişdir.

## NƏTİCƏ

Araşdırma mövzusu olan Yusif Küseyr oğlu türbəsi hicri 557-ci ildə, yəni miladi 1162 cil ildə tikilmişdir. Yusif Küseyr oğlu türbəsi iki qatlı olub, planda səkkizbucaqlı biçimdədir. Türbə iki hissədən: yerüstü qülləvari və yeraltı sərdabədən ibarətdir. Sərdabə hissəsi yer altına salındığından türbə xaricdən birqatlı qüllə kimi görünür. Tübənin daxili bəzədilməmiş, əsas tikintisi və bəzək hörgüsü bir materialla – keyfiyyətli bişmiş kərpiclə işlənmişdir. Xarici həcmində piramidşəkilli hissənin üstü kərpiclə örtülmüş, daxili günbəzə isə yarım dairəvi görkəm verilmişdir.

Nəticədə daxili və xarici örtmələr arasında müəyyən boşluq sahəsi qalmışdır. Beləliklə, burada Yaxın Şərq memarlığının türbə inşaatında tətbiq olunan ikitəbəqəli günbəz örtüyü ilə qarşılaşırıq. Yusif Küseyr oğlu türbəsi özünün düzgün mütənasibliyi, ornament bəzəyinin zənginliyi ilə böyük bədii təəssürat oyadır. Burada Memar ayrı-ayrı tərəflərin səthlərini ornamen bəzəyindən məhrum künc kürəkləri vasitəsilə bölməklə, böyük kompozisiya həssaslığı yarada bilmişdir. Türbənin xarici səthindən fərqli olaraq daxili hissəsi bəzədilməmişdir. Türbənin yuxarı kamerasının döşəməsində düzəldilmiş dairəvi baca onun altında yerləşən sərdabə hissəsinə açılır. Sərdabənin hündürlüyü yerdən üst mərtəbəyə qədər 2,5 metr olmaqla, içərisinin diametri 6 metrdir.

XII əsrdən günümüzə gəlib çatmış Naxçıvan Memarlıq məktəbinin eyni zamanda Memar Əcəminin önəmli memarlıq əsəri olan "Yusif Küseyr oğlu türbəsi"nin gələcək nəsillərə ötürülməsi, dünyada tayı bərabəri olmayan bu abidənin tədqiq edilməsi və öyrənilməsi son dərəcə əhəmiyyətli məsələdir.

**ƏDƏBİYYAT SİYAHISI**

1. Hacıfəxrəddin.S Yusif Küseyr oğlu türbəsi, Naxçıvan:"Əcəmi" Nəşriyyat- Poliqrafiya Birliyi,2021,36 səh.
2. Aysel.H "Naxçıvan memarlıq irsimiz", Xan nəşriyyat, Bakı – 2018.
3. "Azərbaycan M.E.A- nın tarix inst. Elmi məqalələri". Bakı- 1975
4. "Naxçıvan Ensiklopediyası" ( II cilddə) Naxçıvan – 2005
5. Naxçıvan Abidələri Ensiklopediyası Naxçıvan-2008

# XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ MEMARLIQDA ART NOUVEAU VƏ BİONİKANIN VƏHDƏTİ

**İLKİN QULUZADƏ SƏDİ OĞLU**
Bakı Mühəndislik Universiteti
Memarlıq və İnşaat mühəndisliyi/ Bina və qurğuların memarlığı
ilkin.guluzade1@gmail.com
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Bionik memarlıq üslubunun fərqli və müsbət cəhətlərinin öyrənlməsi bizə müasir memarlıq sahəsindəki yeni layihələrin ərsəyə gəlməsində köməklik göstərir. İnsanla təbiətin bağlılığı və harmoniyası, eləcə də təbiətdən öyrənməklə daha sağlam strukturlu tikililərin inşası şəhərsalma sahəsində əsas məsələlərdən biri kimi həmişə diqqət mərkəzində qalmaqda davam edir. Kamil mühəndisliyi təbiətin özündən öyrənərək tətbiq etmək və quruluşlardakı mükəmməlliyi əldə etmək memarların qarşısında duran vacib məsələlərdən biridir. Estetik cəhətdən bir-birindən tam fərqli binaların dizayn edilməsi və səmərəli təbii materiallardan istifadə memarlıqda qarşıya qoyulan əsas məsələlərdən biridir. Odur ki dövrün memarları yeni memari modellərin axtarışı üçün həm təbiətdən həm də texnologiyanın imkanlarından mümkün qədər istifadə edərək yeni layihələr hazırlayırlar. Bu səbəbdən bionik memarlıq üslubu yenidən gündəmə gələrək diqqət obyektinə çevrilir.

**AÇAR SÖZLƏR:**

**Saqrada Familia, bionik memarlıq, Qaudi yaradıcılığı,**

**SUMMARY**

Studying the different and positive aspects of the bionic architectural style helps us to create new projects in the field of modern architecture. The connection and harmony of man and nature, as well as the construction of buildings with a healthier structure by learning from nature, continue to be in the spotlight as one of the main issues in the field of urban planning. Applying perfect engineering by learning from nature itself and achieving perfection in structures is one of the important issues facing architects. Designing aesthetically different buildings and using efficient natural materials is one of the main issues in architecture. That's why the architects of the time prepare new projects, using both nature and the possibilities of technology as much as possible in order to search for new architectural models. For this reason, the bionic architectural style is again on the agenda and becomes an object of attention.

**KEY WORDS: Bionics, bionic architecture, Gaudi's creativity, Saqrada Familia**

## GİRİŞ

Elmi texniki tərəqqinin inkişafı ilə müasir dövr memarlığı yeni bir mərhələyə keçid edib. Dünyada şəhərsalma sahəsində aktual olan əhali artımı, ekoloji balansın pozulması, təbiətin və onun sərvətlərinin kobud formada istismar olunması və s. kimi qlobal məsələlər memarları ciddi mənada düşünməyə vadar edir.

Bionik üslubun tarixinin öyrənilməsi, bu sahədəki sənət adamlarının fikir və düşüncələrinin araşdırılması yeni ideyaların yaranmasına təkan verdiyi üçün mövzu aktuallığını qoruyur. Mövzunun aktuallığını nəzərə alsaq bu sahədə yazılmış kitab və elmi məqalələr kifayət qədər deyil, məhz buna görə bu məqalədə bionik memarlıqda öz dəsti xətti ilə tanınan və İspanıyanın paytaxtı Barselona şəhərinin formalaşmasında çox əməyi olan məhşur memar Antonio Qaudinin layihələrində bu üslub təhlil edilərək, bionik formaların üstünlükləri və fərqli cəhətləri nəzərdən keçirilmişdir.

İnsanlığın təbiətlə bağlılığı və təbii elementlərin təhlili, tədqiqi və yaşam tərzində tətbiqinin kökləri qədim dövrlərə gedib çıxsa da, bionika bir elm kimi XX əsrin 60-cı illərində meydana çıxıb. Bionika - biologiya və kibernetika elmlərinin birləşməsi olaraq belə adlanır və əsasən təbiətdəki canlı orqanizmlərin struktur və quruluşunu, forma və şəkillərini öyrənərək texnikada tətbiq etməklə məşğuldur. Məlumdur ki, təbiətdə var olan hər bir canlı uzun təkamül prosesi keçərək mükəmməl bir quruluş və formaya sahib olmuşdur. Təbiət öz rəngarəngliyi və forma müxtəlifliyi ilə çox zəngindir. İnsanın bitkilər və heyvanlar aləmindən həmişə öyrənə biləcəyi yeni araşdırma və tədqiqlər vardır.

Memarlığın bionik formayaranması (təbiətdən öyrənərək təqlid və tətbiq etmə) təbii forma və quruluşların memarlıqda tətbiqini öyrənməkdə və müasir dövrdə daha çox istifadə edilməkdədir. Buna səbəb isə elm sahəsindəki yeniliklərə və dövrün tələblərinə cavab verən təbiətlə həmahənglik təşkil edən ekosistemli və təbii materiallardan səmərəli istifadə olunan memarlıq layihələrinə duyulan ehtiyacdır. Deməli bionik memarlıq əslində qədim yanaşmanın müasir formasıdır. XIX əsr memarlıq tarixində tanınmış şəxsiyyətlərdən biri olan memar Antonio Qaudi, yaradıcılığında təbiət xəzinəsindən bəhrələnərək misilsiz əsərlər yaratmış, dünya incəsənətinə dəyərli töhfələr bəxş etmişdir. 1852-ci ildə Barselonada sənətçi ailəsində dünyaya gələn Antonio Qaudinin memarlığa marağının əsasında nəsildən-nəslə ötürülən "daş ustalığı " peşəsi ilə məşğul olmaları durur.

Memar yardıcılığında pillə-pillə qalxaraq, qarşılaşdığı hər bir sənətin incəliklərini böyük bir həvəs və səbrlə öyrənmişdir. 20 yaşında Ali Memarlıq Məktəbini bitirən Qaudi 12 il E.Sala və F.Vilyar kimi memarların rəhbərliyi altında kiçik (fənər və oturacaqlar düzəltmək, hasar fasadı işləmək kimi) yaradıcılıq işləri ilə məşğul olmaqla bərabər müxtəlif sxem və eskizlərin çəkilməsi üsullarına da yiyələnir. Qaudinin. yaşadığı dövrün memarlıq üslub və materiallarına nəzər salsaq, təbiətdən ilham alaraq daşları necə bir ustalıqla işləyib, istədiyi şəklə salaraq yaratdığı binalara fərqli görünüş və forma verən sənətkarlığına heyran olmamaq mümkün deyil. Sənətkarın daxili aləmi, düşüncə və fikirləri haqqında məlumatlar onun yaratdığı əsərlərində öz əksini tapmışdır.

Visens evi 1883 - 1885-ci illər arasında inşa edilmişdir. A. Qaudinin əsərləri içərsində ilk işi olan "Visens evi"nin dizaynında əsasən orta əsr İslam memarlıq texnikasından mudejar, mavritan üslubunun motivlərindən istifadə etmişdir. Bina sadə quruluşa sahib olsa da, memar eyvan və qabarıq fasad işlərindən məharətlə istifadə edərək həcm genişliyi yaratmışdır. Fasadın keramik plitələr və kərpiclərlə işlənməsi, onların rəng axarlığı vizual görüntüyə gözəllik qatır. Birinci mərtəbədə yerləşən otaqlar əsasən Aralıq dənizi flora və faunasının dekorativ elementləri ilə bəzədilib. Bir otaqda tavanın qübbə formasında işlənilməsi sahənin uçan quşlarla mavi səmaya açıldığı hissini yaradır. Bu dekorasiya sahəsində daxildə sıxıcı divarlardan azad olaraq ortama təbiət havası qatmış olur.





Şəkil 1. "Visens evi" fasad görüntüsü.

Barselona, İspanya. 1883 - 1885 -ci il.

Şəkil 2. "Visens evi"nin eyvan görüntüsü.

Barselona, İspanya. 1883 - 1885 -ci il.





Şəkil 3. "Visens evi"nin interyer həlli

Barselona, İspanya. 1883 - 1885 -ci il.

Şəkil 4. "Visens evi"nin tavan işləməsi.

Barselona, İspanya. 1883 - 1885 -ci il.

Batlo evi (1905-1907)

Tekstil maqnatı Batlo sahib olduğu binanı rekostruksiya etmək üçün Qaudiyə müraciət etdikdə memar öz sənətkarlığı ilə tanınmışdır. Bu bina memarın yaradıcılığında yeni bir pillə idi və onun dizaynla yanaşı, həm rasionalizmə, həm də hesablamalara böyük diqqət yetirdiyinin bir sübutudur. Bina zahiri görkəminə görə XX əsrin ənənnəvi tikililərdən çox fərqlidir. Ümumi görünüşdə tikili dəniz nağıllarındakı su altında təsvir

olunan evlərə oxşayır. Əyri çıxıntılı forma, balıq başına bənzəyən eyvanlar dənizin və yosunların rəngi, tavanın əyriliyi, pəncərələrin forması yəni ümumilikdə hər bir detal tamaşaçını cəzb edir.



Şəkil 5. "Batlo evi" . Barselona, İspanya.

1905 - 1907-ci il.



Şəkil 6. "Balto evi". Barselona, İspanya.

1905 – 1907- cil il



Şəkil 7. “Batlo evi”nin daxili məkan işıqlanması. Barselona, İspanya. 1905 - 1907-ci il.

Maraqlı burasıdır ki, binanı nəhəng insan sümüklərindən və kəllələrindən yığılmış tikiliyə də bənzədirlər. Məhz bu bənzətməyə görə Barselona sakinləri, onu “Sümüklər evi” adlandırmışdır. Yəni binanın forması hər tamaşaçıda öz təxəyyülünə görə müxtəlif təəssüratlar oyada bilir. Qaudi daxili həyətin dekorasiyasında işıq effektindən ustalıqla istifadə edərək həyətdə işığın bərabər paylanmasına nail olur. Memar bu effekti aşağıdan yuxarıya doğru pəncərələrin ölçüsünün kiçilməsi və üzlüklərin fantastik rəngi sayəsində əldə edə bilir: Rəng tonu aşağı hissədə qar kimi ağ rəngdən yuxarıya doğru yumşaq maviyə, sonra isə parlaq göy rəngə çevrilir, bütün bunlar düzgün seçilmiş üslub və aydın hesablama nəticəsində mümkün olub. Alt mərtəbədəki pəncərələrin qeyri-münəzzəm forma və fərqli quruluşu kənardan baxana yumşaq bir materialdan hazırlanan oyuncaq kimi görünür. Təbii ki, bu təəssürat aldadıcıdır: bütün elementlər oymaqçının üzərində işlədiyi sərt daşlardan hazırlanmışdır. Fasadın bəzədilməsində istifadə olunan daşlar Montjuic dağından gətirilib. Daxili interyerdəki mebel və əşyaların forması da insanı sehirli aləmə salır, elə bil hər bir element məhşur “Çirkin və gözəl “ nağılındakı kimi istənilən anda canlanıb hərəkət edə bilər.



Şəkil 8. “Batlo evi”nin  fasad işləməsi və pəncərələrin forma fərqliliyi.
Barselona, İspanya. 1905 – 1907- ci il



Şəkil 9. “Batlo evi”nin interyerində pəncərə və tavan görünüşü. Barselona, İspanya. 1905 – 1907- ci il

Binadakı maraqlı detallardan biri də yuxarı baxdıqda sanki, binanın uzanaraq göyə qalxmasıdır. Gaudi müxtəlif rəngli qırıq plitələrdən ibarət mozaikalardan istifadə etməklə belə bir optik illüziya əldə edə bilmişdir. Antonio Qaudinin "Batlo Evi" adlı şah əsərində modern üslubdan istifadə etdiyi qeyd edilsə də, əksər memarlar inanırlar ki, Qaudinin əsərlərindəki üslubu elə onun özünə xas "Gaudi üslubu" adlandırmaq düzgün olardı.

Qaudinin həyatında xüsusi rol oynayan şəxslərdən biri Barselonalı E.Quel olub, məhz onun sifarişi ilə memar 1887-ci ildə Quel malikanəsi, 1888-ci ildə Quel sarayı, 1900-cü ildə Quel parkını inşa edib. İspaniyada, Barselonanın kənarında yerləşən hündür təpə üzərində salınmış park E.Quel – A.Qaudinin modern incəsənətinin parlaq təcəssümüdür. Burada niyyətin əsası şəhər-bağın yaradılması ideyası idi. A.Qaudi vahid incəsənət əsərində təbiətin özünü və bütün tikililəri əlaqələndirməyə bacarmışdır.



Şəkil 10. Qaudi parkının giriş hissəsi. Barselona, İspanya. 1900 – 1914- cü il.



Şəkil 11. Qaudi parkında mozaik plitələrdən kərtənkələ fiquru.

Barselona, İspanya. 1900 – 1914- cü il.

Parka gələn ziyarətçiləri girişdə yerləşən və mürəkkəb memarlıq tamamlanmasına malik iki pavilyon qarşılayır. Bu xidməti pavilyon – müştərilərin gözlənilməsi üçün yer və qapıçının (dalandarın) evidir. Giriş darvazaların yanında "Dorida üslublu məbədə" aparan qabaq pilləkən yerləşir.

Qaudinin hər bir işi təbiətlə həmahəng olaraq bir bütünlük təşkil edir. Memar neoqotik üslubda yenilikçi fikir və ideyalarını həyata keçirmək üçün əsərlərində mövcud imkanlardan mümkün qədər istifadə edir. Qaudi klassik ənənəvi detalları təbiətdəki müxtəlif quruluş və strukturlarla əvəz etməklə yeni formalar yaradaraq sənətə tətbiq edirdi.



Şəkil 12. Qaudi parkında yerli kərpic və daşlardan istifadə edərək inşa olunmuş əyri daş sütunlar. Barselona, İspanya. 1900 – 1914- cü il.

"Milanın Evi "1906-1910-cu il.
Qaudi inşa etdiyi məhşur "Milanın Evi" layihəsində yeni konstruktiv həllər tətbiq edir: daxili daşıyıcı divarlar götürülür, bütün ara mərtəbələr, sütunlar və balkonların konstruktiv rol oynadığı xarici divarlarla dəstəklənir, bu da geniş daxili sahə yaratmağa imkan verir.

Binanın xarici divarlarında mükəmməl daş işçiliyi sərgilənir, bu da memarın irsən ötürülən daş ustalığı sənətinin incəliklərinə bələd olmasından irəli gəlir. Sənətkar daşları bir oyun xəmiri kimi müxtəlif formalarda yonub işləyərək misilsiz sənət sərgiləyir. Evin bədii obrazı təbii motivlər mövzusunu (dəniz dalğaları, qayalıqlar, sualtı dünyanın rəngarəngliyini) əks etdirir.

Təbii material və motivlərdən istifadə nəticəsində bionik formayaranmanın nümunəsi olan əsərlər ərsəyə gətirir. Qaudi bu işində də öz təxəyyülünün məhsulu olan binanı elə layihə edir ki, bina vizual görüntüdə bir memarın yox, təbiətin sənət işinə bənzəyir, elə bil daş qaya zaman aşamasında külək hava su vasitəsiylə deformasiya olunaraq bu şəkli almışdır. Barselona sakinləri iddia edir ki, binanın içərsində olduqda dalğavarı divarlar qumdan düzəldilmiş şəkildə işlənmiş tavan insana dalğalanan dənizdə olma hissini aşılayır. Beləliklə memar hər bir işinə həssaslıq və məsuliyyətlə yanaşaraq təbiətə heyranlıq və bağlılığını nümayiş etdirir. Yaşadığı dövrə xas olan mühəndis texnika və qurğularının bəsit olması, modern texniki imkanlara sahib olmaması qarşıya çıxan çətinlikləri, uzun və məşəqqətli iş prosesi nəzərə alınarsa, Qaudi çox mükəmməl memarlıq abidələri yaratmışdır.



Şəkil 13. "Milanın Evi". Barselona, İspanya. 1906 – 1914- cü il.



Şəkil 13. "Milanın Evi"nin fasadında daş və dəmir işləmə.
Barselona, İspanya. 1906 – 1914- cu il.

"Müqəddəs Ailə məbədi" (1884-... )
Qaudinin bionik memarlığa aid başqa bir əsəri "Müqəddəs Ailə məbədi" kompleksidir.
Modernin orijinal variantının "Müqəddəs Ailə" (Saqrada Familia) kilsəsi kimi unikal məbədin tikintisi olduqca uzun müddət ərzində davam etmişdir və A.Qaudinin həyatının yarısı qədər olmuşdur. Həmin məbəd memarların nəsilləri arasında varisliyin mövcudluğunun sübutudur. Hal-hazırda baş kilsə üzərində əlliyə yaxın memar işləyir. Məbədin tikintisi 1881-ci ildə memar P.Villyar tərəfindən işlənib hazırlanmış layihə üzrə başlamışdır, bundan sonra işlərə H.Martorel başçılıq edirdi, onun estafetini isə A.Qaudi qəbul etmişdir.1884-cü ildə latın xaçı şəklində layihə edimiş dini kompleks bir sıra amillərə görə uzun sürən tikintiyə çevrilmişdir.



Şəkil 15. Müqəddəs ailə kilsəsi. Barselona, İspaniya1884-cü il.



Şəkil 16. Müqəddəs ailə kilsəsinin pəncərələrində şüşə mozaik işləmə. Barselona, İspanya 1884- cü il.

Tikinti artıq 140 ildir ki, davam edir və 2030-cu ildə başa çatması planlaşdırılır. Buna təsir edən amillər isə kompleksin mürəkkəb, konstruksiyası, daxili və xaricidizaynındakı xırda işçiliyin çoxluğu və s. məsələlər aiddir.

Memar bu əsərində ustalıqla dini və təbiət motivlərini birləşdirərək möhtəşəm layihə ərsəyə gətirib. Yaradılışın rəngarəngliyi və yaradanın qüdrətini kompleksin hər detalında təsvir edən memar sənətkarlığını ortaya qoyaraq əvəzsiz sənət əsəri yaratmağa nail olmuşdur. Kompleksin mərkəzi hissəsində müqəddəs Məryəmin izzətinin səhnəsi olan daşdan oyulmuş Milad ağacı, ətrafında isə İsanın doğum səhnələri və həvarilərin simvolik fiqurları yerləşir.

Kənarlarda yerləşən fiqurların təbii görünməsi və inandırıcı olması üçün memar müxtəlif quş, heyvan, hətta ölü doğulan körpələrdən model kimi istifadə edərək gips üçün qəlib hazırlayıb. Heykəllərin düzəldilməsi zamanı keşişlər və hətta yerli çobanlardan belə model kimi istifadə edilib. Kompleks 3

hissəyə bölünür: "Doguş", "Rəbbin ehtirası", "Məsihin yüksəlişi" adlandırılan bu bölmələr simvolik olaraq dünyaya gəlişi, ölüm və dirilişi səciyələndirir. Layihəyə əsasən hər bölmədə 12 qüllə (məsihin həvarilərinin sayını təmsilən) və mərkəzi nefin üzərində isə 6 qüllə inşa edilməlidir. Sonuncu qüllələrin biri İsa Məsih, digəri müqəddəs Məryəmə, yerdə qalanı isə dörd müjdəçiyə ithaf olunur. Məsihin qülləsinin hündürlüyü 167 metrdir və Montjuic dağından sonra şəhərin ikinci hündür obyekti sayılır. Qaudi Yaradana inancı və təbiətə ehtiramına görə, insanın yaratdığı Tanrının yaratdığından yüksəkdə olmamalıdır düşüncəsinə sahibdir. Məbədin içərisində təbiət təsviri yaratmaq üçün, memar həm də qotik üslubda istifadə olunan dayaq ənənəvi düz sütunların yerinə hündürlüyü 60 metrə çatan tavana doğru budaqlanaraq meşə mənzərəsi yaradan tağlardan istifadə edilib. Tavandakı oyuqlar quş yuvası formasında işlənib.

"Rəbbin Ehtirasları" bölməsində Qaudi günah və pis işləri təmsil edən rəsm və heykəllərdən qabarıq şəkildə istifadə edərək insanı heyrətləndirmək istəyir, mərkəzdə ən təsirli səhnə çarmıxa çəkilən İsa Məsihin fiquru və onun ətrafında yer alan qaranlıq və ürküdücü görünüşlü insan və şeytani qüvvələri təmsil edən fiqurlar yer alıb. Kompleksin ümumi görünüşü ucu şiş qayaları xatırladır. Məşhur rəssam Salvador Dali Antonio Qaudinin yaradıcılığının böyük pərəstişkarı olub, sənətə xüsusi baxışı olan sənətçi ən çox Mila evini ziyarət edərdi.



Şəkil 17. Müqəddəs ailə kilsəsində daş sütunlar. Barselona, İspanya. 1884- cü il.



Şəkil 18. Müqəddəs ailə kilsəsinin tavan işləməsi. Barselona, İspanya. 1884- cü il.

Hətta 1956-cı ildə Salvador Dali məbədin tikintisinə pul toplamaq üçün Quel Parkında Qaudinin şərəfinə bir şənlik təşkil etmişdir.
Qaudinin yaradıcılığındakı bütün gözdən keçirdiyimiz detalları nəzərə alarsaq, qarşımızda öz-dəsti xətti ilə fərqlənən, sənətinə heyranlıq duyan və yaratdığı hər əsəri ilə tarixdə imzasını qoyan bir sənətkar var. Gaudinin yeniliklərin axtarışında olması, yeni formalar yaratmaq istəyi, düşüncələrin axarında rasionallıqla birləşən intuisiyası, heç bir xırda detalı gözdən qaçırmaması, təfərrüata diqqət, memarlıq formasının “sərbəst qəlibi” ilə zərif dekorasiya bu gün də müasir memarlığa təsir edən Qaudi üslubunun xüsusiyyətləridir. Memarın yaradıcılığı əsasən modern üsluba aid edilsə də, əsərlərdə klassika və neoqotik üslubdan da istifadə olunub. Qaudi köklərinə bağlı və inanclı bir insan olduğu üçün onun ilham mənbəyi bioloji aləm olub. Əsərləri ilə Kataloniyanın mərkəzi Barselonanı memarlıq muzeyinə çevirən Qaudinin yaradıcılığını tədqiq etmək və bu əsərlərin möhtəşəmliyinin şahidi olmaq üçün mütləq Barselonaya səfər etmək lazımdır. Bu şəhər məhşur memarın əsərlər kolleksiyasının açıq səma altındakı muzeyi sayılır və Qaudi yaradıcılığının vizit kartıdır. Şəhərin hər küçə və prospektində imzasını qoymuş memar, sənəti ilə bu gün də doğma şəhərinə sənətsevərləri cəlb edir. Memarın əsərlərindən 7-si YUNESKO-nun Dünya mirası siyahısına salınıb.

## TƏDQİQAT METODU

Bu məqalədə öz yaradıcılıq üslubu və dəsti xətti ilə dünyada tanınan, eyni zamanda İspaniyanın Barselona şəhərinin formalaşmasında da əhəmiyyətli rolu olan memar Antony Gaudinin yaradıcılığı tədqiq və təhlil edilmişdir. Tədqiqat metodu kimi Antony Gaudinin yaradıcılığı haqqında yazılan yazılı, vizual və elektron mənbələrdən geniş istifadə edilmişdir. Araşdırmada memarın yaradıcılığına aid əsərlərin şəkilləri yer almışdır.

## NƏTİCƏ

Antony Gaudinin yaradıcılığına aid bütün bu tədqiq və təhlillərdən belə nəticəyə gəlmək olar ki, təbiət öz əsrarəngizliyi və fərqliliyi ilə tükənməz bir xəzinədir. Bir mühəndis və memar baxışı ilə hər zaman bu xəzinədən yeni biliklər əldə edərək dövrün tələbatını ödəyəcək yeni layihə və ideyalar ərsəyə gətirmək mümkündür.

## ƏDƏBİYYAT SİYAHISI

1.Ольга В.О. « Современная зарубежная архитектура » Москва издательство Академия. 2006 г.

2.Editorial Escudo de Oro, S.A. Barcelona «Весь Гауди.» Издательство. 1974

3.Лебедев Ю.С. «Архитектурная бионика» Москва Стройиздат. 1990 г.

4.Гиз Ван Хейзенберг (Пер.с англ. Ю. Гольберг) «Антонио Гауди» Идательство Эсмио 2003г.

5.Juan N.B. «Antonio Gaudi». Stroyizdat. 1986

# NAXÇIVAN TARİXİ MEMARLIĞINDA KERAMİK ÜZLÜK MATERİALLARIN İSTİFADƏSİ

**PAŞA PAŞAZADƏ**
BAKI MÜHƏNDİSLİK UNİVERSİTETİ
Memarlıq və İnşaat/Memarlıq mühitinin dizayı
*p.pawazade@mail.ru*
BAKI, AZƏRBAYCAN

**1.XÜLASƏ**

Naxçıvan tarixi memarlıq abidələrində tarixi memarlıq xüsusiyyətlərinin ətraflı öyrənilməsi, onların inşasında istifadə olunan materialların, xüsusi ilə keramik üzlük materiallarının forması, rəng-bəzəmə və texnoloji baxımından daha dərindən öyrənilməsinin vacibliyi qeyd olunmuşdur. Abidələrdən götürülmüş keramik üzlük materiallarının nümunələrini laboratoriya şəraitində analiz etməklə onların texnoloji tarixi, eləcə də bərpa üsulları araşdırılmışdır. Aparılmış tədqiqat zamanı Naxçıvanda yerləşən tarix və mədəniyyət abidələrinin bir qisminin daha öncədən bərpa edildiyi müəyyən olunmuşdur. Müasir dövrdə bərpa olunan abidələrdə forma və rəng baxımından oxşar materiallar istifadə olunsa da, kimyəvi baxımından eyni olmayan materiallardan da istifadə olunmuşdur. Araşdırmalar zamanı tarixi memarlıq abidələrində istifadə olunan keramik üzlük materialının hazırlanmasına sərf olunan xammalın yerli olması sübut olunmuşdur. Naxçıvan ərazisində keramika tək tikinti materialı kimi deyil, bəzək materialı kimi də istifadə olunmuşdur.

**SUMMARY**

The importance of a detailed study of the historical architectural features of the historical architectural monuments of Nakhchivan, and the importance of a deeper study of the materials used in their construction, especially the shape, color and decoration and technology of the ceramic facing materials, was noted. Restoration methods were investigated by analyzing samples of ceramic cladding materials taken from monuments in laboratory conditions. During the conducted research, it was found that some of the historical and cultural monuments located in Nakhchivan have been restored. Although similar materials in terms of shape and color were used in the monuments restored in modern times, chemically different materials were also used. During the research, it was determined that the raw materials used for the preparation of the ceramic covering material used in historical architectural monuments are local products. In the territory of Nakhchivan, ceramics were used not only as a building material, but also as a decoration material.

1. **AÇAR SÖZLƏR: keramika, tarixi memarlıq abidələri, Naxçıvan**

**KEYWORDS: CERAMİCS, HİSTORİCAL ARCHİTECTURAL MONUMENTS, NAKHCHİVAN**

## 2. GİRİŞ

Məlumdur ki, Azərbaycan memarlığı kifayət qədər zəngin və qədim tarixi ənənələrə malikdir. Azərbaycan ərazisində İstər İslamdan öncəki, istərsə də islamdan sonrakı dövrdə yaradılmış abidələr öz forma müxtəlifliyi, memarlıq üslubu və istifadə olunmuş inşaat materiallarının rəngarəngliyi baxımından qonşu mədəniyyətlərdən xeyli fərqlənirlər. İslama qədərki ibtidai memarlıq abidələri əsasən mağaralarla

təmsil olunur. Bölgənin strateji əhəmiyyəti onun uğrunda əsrlər boyu müharibələrin aparılmasına səbəb olmuşdur ki, bu da o dövrün memarlıq abidələrinin dağılmasına gətirib çıxarmışdır. İslama qədərki dövr Azərbaycan memarlığında həm təbii (məsələn, Azıx mağarası), həm də süni mağaralar (məsələn, Talış dağlarında, Zəngilanda, Şamaxıda, Qarabağda, Naxçıvanda və s.) xarici və daxili görünüşlərinin orijinallığı ilə fərqlənirlər. Təbii mağaralar kimi bir neçə küyüldən ibarət olan süni mağaralar da əsasən yer səthindən xeyli hündür məsafədə dik qayalar və dağ döşündə düzəldilmişdir (məsələn, Qubadlı rayonu Bərgüşad kəndi ərazisində, Mərəzə, Sündi, Dərəkənd yaxınlığında tapılmış mağaralar), yaşayış və müdafiə üçün çöl və interyer baxımından maraqlı həll kompozisiyalarına malikdilər. Daş hörgüsünün meydana çıxması nəticəsində yeni tipli qazma və yarımqazma binalar inşa edilməyə başladı. Öz başlanğıcını süni mağaralardan almış belə binalar uzun bir tarixi inkişaf prosesi keçmiş və memarlıq tarixində "Qaradan" adı ilə məşhurlaşmışdır.

**Qafqaz Albaniyası dövrü :** bu dövrdə (e.ə. IV yüzil – eramızın VII yüzili) şəhərsalma sahəsində mühüm addımlar atılmışdır. Qəbələ şəhərinin möhkəm qala divarları, saxsı borularından çəkilmiş su kəməri, Dəmirqapı (Dərbənd) keçidində daşdan tikilmiş müdafiə sistemi ("uzun divarlar"), Çıraqqala (VI yüzil), Ləkit kəndindəki dairəvi xristian məbədi (V-VI yüzillər), Qum kəndindəki bazilika (təqribən VI yüzil), Mingəçevirdəki məbədlər kompleksi (VII yüzil) və s. bu şəhərsalma mədəniyyətinin yüksək səviyyəsini göstərir. Səsani dövrü memarlıq abidələrindən müdafiə tikililəri özəllikcə diqqəti cəlb edir. Xəzər dənizinin sahilindən başlayaraq, Babadağın ətəyində qurtaran Gilgilçay səddi və indiki Şabran rayonu ərazisində yerləşən Beşbarmaq dağından başlayıb, Xəzərin sahillərinə qədər uzanan Beşbarmaq səddi Azərbaycanda istehkam tikililərinin inkişafı haqqında geniş təsəvvür yaradır.

Ərəb istilalarından və islamın yayılmasından sonra Azərbaycan memarlığında məscid, mədrəsə, türbə, karvansara kimi abidələrin inşası geniş yayılmağa başladı. Bu dövrdə Şamaxı, Beyləqan kimi kifayət qədəır iri şəhərlər yarandı ki, onların memarlıq üslubunda islam mədəniyyətinin atributları geniş yer almağa başladı. İslam memarlığı Bərdədə, Ərdəbildə, Marağada, Urmiyada, Şamaxıda, Şəmkirdə, Şabranda, Beyləqanda, Gəncədə və Naxçıvanda sürətlə inkişaf edib təşəkkül tapmağa başladı. Maraqlısı ondadır ki, islam memarlığı ilə yanaşı xristiyan memarlığı da öz inkişafını dayandırmadı, Qafqaz Albaniyasının ərazilərində xristiyan məbədləri, müdafiə istehkamları tikilməkdə davam etdi (məsələn, İsmayıllıda Cavanşir qalası VII yüzillik, Qazax rayonunda qala kompleksi (V-VIII yüzillik), Oğuzda, Xocəvənddə, Şəkidə, Ağdərədə və s. Alban kilsə və məbədləri (orta əsrlər) öz orijinallığı ilə fərqlənirdilər [1-3].

IX-XII əsrlərdə xilafətin zəifləməsi Azərbaycanda xırda feodal ərazilərin yayılmasına və Arran, Naxçıvan-Marağa, Şirvan-Abşeron, Təbriz kimi müxtəlif memarlıq məktəblərinin formalaşmasına şərait yaratdı. Bu memarlıq məktəbləri arasında ümumi üslub yaxınlığı nəzərə çarpsa da istifadə olunan materialların fərqli tərkibə və xassələrə, plastikaya malik olmaları memarlıq abidələrinin xarici və daxili görünüşündə aydın şəkildə təzahür edir. Arran memarlıq məktəbinə (Gəncə, Bərdə, Beyləqan) mənsub sənətkarların yaratdığı əsərlərin böyük əksəriyyəti məlum Gəncə zəlzələsi (1113-cu il) və Monqol istilası zamanı dağıldığından bizim dövrümüzə ancaq qalıqları gəlib çatıb və bu qazıntı məlumatları Arran məktəbinin zəngin ənənlərə malik olduğunu göstərir[1-9].

**Naxçıvan memarlıq məktəbi:** Naxçıvan memarlıq məktəbinin abidələri binalarda çox boyalı kaşıdan ornamentli baştağ kompozisiyalarının tətbiqi, Şirvan-Abşeron məktəbinə mənsub tikililər sadə memarlıq bölgüləri və dekorativ oyma bəzəkləri ilə seçilir. Təbriz məktəbinin ən yaxşı abidələri üçün memarlıq quruluşunun dəbdəbəliyi, dekorların müxtəlifliyi səciyyəvidir. Dövrümüzədək çatmış mütənasib quruluşlu, zəngin dekorlu qülləvarı türbələr və digər tikililərdə Naxçıvan məktəbinin üslub özəllikləri əksini tapmışdır. Bu məktəbin ən yüksək zirvəsini Naxçıvandakı Yusif İbn Kuseyr (1162-ci il) və Möminə Xatun (1186-cı il) türbələrinin, eləcə də hazırda mövcud olmayan dini tikililər kompleksinin müəllifi memar Əcəmi Əbubəkr oğlu Naxçıvaninin yaradıcılığı təşkil edir. Əcəminin yaradıcılığı üçün obrazın monumentallığı,

kompozisiyanın mütənasibliyi və dekorların zərifliyi, öz dövrünə görə rasional konstruksiyaların tətbiqi, ornament bəzəklərinin oynaqlığı səciyyəvidir. Onun ornament kompozisiyaları bədiiliklə riyazi təfəkkürün üzvi birləşməsinə əsaslanır. Əcəminin yaratdığı kompozisiya və dekorativ bəzək üsulları Azərbaycanın, eləcə də müəyyən ölkələrin türbə tikililərinə böyük təsir göstərmişdir. Marağadakı Göy günbəz türbəsi (1196, memar Əhməd Məhəmməd oğlu) Əcəmi üslubuna olduqca yaxındır [10].

## 3. TƏDQİQAT METODU

Araşdırmalarımız və yuxarıda qeyd etdiklərimiz göstərir ki, tarixi, arxeoloji, bədii memarlıq dəyərləri baxımından Azərbaycan ərazisində mövcud olan tarixi abidələr kifayət qədər geniş öyrənilsə də onların inşasında istifadə olunan materialların öyrənilməsinə kifayət qədər yer ayrılmamışdır. Məlumdur ki, Azərbaycan memarlığında kərpic, müəyyən ölçülü mişar daşları tarixən mütənasibliyi tapıb hesablamaq üçün modul kimi istifadə edilmişdir. Materialın fiziki mahiyyəti ondan hazırlanan elementlərin ölçüləri üçün həmişə müəyyən məhdudiyyətlər qoyur. Ədədi materiallar öz formalarının mütənasibliyi hesabına binanın və onun hissələrinin görünən mütənasibliyini korrektə etmək üçün geniş imkanlara malikdilər. Material memarlıq kompozisiyasına müəyyən miqyaslılıq verir, mütənasibliyin gücləndiricisi rolunu oynayır. Memarlıq kompozisiyalarının ritmik quruluşunun formalaşmasında inşaat materiallarının rolu həlledici olmasa da, kompozisyon element kimi material fasadda və interyerdə ritmin ölçüsünü müəyyən edən çoxsaylı ritmik təkrarlayıcı rolunu oynayır. Beləliklə material ritmin qurulmasının metrik əsasını təşkil edir. Materialın tikintidə yerinin dərk olunması onun xüsusiyyətləri ilə: ölçüsü, forması, fakturası və s əlaqəlidir. Materialın xarici görünüşü onun daxili quruluşunu təsəvvür etməyə kömək edir ki, bu da bədii formanı dərk etməyə şərait yaradır. Material bir tərəfdən binanın konstruktivliyini-daxili konstruksiyasını, digər tərəfdən isə tektoniksasını təyin edir. Memarlar həmişə çalışmışlar ki, materialın səthinin və formasının tektonik potensialı hesabına bina və qurğunun massivliyi təsəvvürünü yaratsınlar. Göründüyü kimi hər hansı bir tikilinin, o cümlədən tarixi binaların memari ifadəsi onun material komponentini əsaslı şəkildə dərk etmədən çox çətindir və bəzən mümkün deyil. Ona görə də biz Naxçıvan abidələri, o cümlədən Möminə Xatun və Qarabağilər türbələri üzərindən onların tikintisində istifadə olunan inşaat materiallarının forma, tərkib xüsusiyyətlərinin öyrənilməsini məqsədəuyğun hesab etdik.

İlk öncə onu qeyd edək ki, 1186-cı ildə memar Əcəmi Naxçıvani tərəfindən inşa edilmiş türbənin ilkin hündürlüyü 34 metr olsa da, onun çadırvari günbəzi dövrümüzdə tamamlanışdır; buna görə də dövrümüzdə türbə 25 metr hündürlüyə malikdir (dövrümüzə çatmamış çadırvari günbəzsiz). Mömünə Xatun türbəsi Atabəylər Memarlıq Kompleksinin dövrümüzə çatmış yeganə abidədir.

**Möminə Xatun türbəsinin ümumi quruluşu** – sərdabə və onbucaqlı şəklində həll olunmuş qüllədən ibarətdir. Türbənin sərdabəsi də planda onbucaqlıdır. Sərdabə və bayır üzlərdən fərqli olaraq, Əcəmi qüllənin interyerində mürəkkəblikdən uzaq olmuş, sayalığa və bütövlüyə üstünlük vermişdir. Türbənin hündür olmayan kürsülüyü onüzlü biçimdə olub, cilalanmış iri diorit lövhələri ilə üzlənmişdir. Türbənin qülləvari prizmatik tutumunun təmiz həndəsi gözəlliyini pozmamaq üçün memar giriş qapısı olan şərq üzünü xüsusi tutum və bəzəklərlə o biri üzlərdən kəskin ayırmamışdır. Qülləyə bir düzbucaqlı giriş qapısı dayaz sivri tağça içərisinə salınmış, onun üstündə kərpicdən kufi xətti ilə kitabə yığılmışdır. Türbə qırmızı dioritdən olan qaya daşları ilə örtülmüş postament (altlıq) üstündə ucaldılmışdır. Tədqiqat işimizdə türbənin inşasında istifadə edilmiş kaşıların və bişmiş gil kərpicinin həndəsi parametrlərini, xassələrini və tərkibini öyrənməyi qarşımıza məqsəd qoyduq[1-9]. Eləcə də Naxçıvanda Möminə Xatun türbəsini ziyarət etdik və istifadə olunmuş kərpic və kaşılardan nümunə alıb müvafiq analizlərin aparılmasına cəhd etdik.

Türbənin tikintisi 200x200x40 (h) mm ölçüdə kərpic olmaqla yastı düzülüş formasında hörülmüşdür (şəkil 1).

Türbənin fasadlarında mürəkkəb naxış bəzəyinin asan qavranılmasını təmin etmək üçün firuzəyi şirlənmiş xüsusi üzlük kərpiclərdən (düzbucaqlı formada kəsilməklə 30 mm enində) istifadə edilmişdir Türbənin 10 üzünün hər birində təkrarlanan həndəsi elementlər istifadə edilməklə, bir-biri ilə ahəng təşkil edən, lakin bir-birini təkrarlamayan naxışlar yaradılmışdır. Kaşıdan olan naxışların əksəriyyəti 8,9,10,11 və 12 tərəfli bir birinə keçmiş,mərkəzində səkkizguşəli və onguşəli ulduzlar olan ornamentlərdən ibarətdir (şəkil 1, 2 və 3 ). Araşdırmalarımızı həm şirəli kərpic qırıntısı nümunəsi üzərindən (analizə ayrıayrılıqda şirə komponenti və bünye adlandırdığımız əsas substrat təqdim edilmişdir) aparılmışdır.



**Şəkil 1. İstifadə olunmuş kərpic.**



**Şəkil 1. Türbənin fasad naxışı.**



**Şəkil 2. Türbənin fasad naxışı.**



**Şəkil 3. Türbənin fasad naxışı.**



**Şəkil 4. Türbənin fasad naxışı.**



**Şəkil 5. Türbənin fasad naxışı.**



**Şəkil 6. Türbənin fasad naxışı.**

Götürülmüş nümunələrin kimyəvi-mineraloji tərkibinin öyrənilməsinə hazırlıq prosesi şəkil 7, 8 və 9 – da qeyd olunmuşdur.



**Şəkil 7. Gil yatağından götürülmüş gil-torpaq nümunəsinin.**



**Şəkil 8. Kərpic nümuməsinin əzilmiş forması.**



**Şəkil 9. Şirə nümunəsinin əzilmiş forması.**

Tədqiqatların sonrakı mərhələsində qarşımıza aşağıdakı beş mühüm məsələnin həllini qoyduq:

1) İstifadə olunan inşaat materialların istehsal üsulları haqqında fikir yürütmək;
2) Həm şirə, həm də kərpicin kimyəvi-mineraloji tərkibini öyrənib onların texnoloji tarixi və xüsusiyyətlərini müəyyən etmək;
3) İstifadə olunan inşaat materiallarının yerli və ya gətirilmə olduqları haqqında müvafiq əsaslanırılmış qərar vermək;
4) İstifadə olunmuş inşaat materiallarının üzərinə çəkilmiş şirələrin tərkibi və bişmə rejimləri barədə araşdırma aparmaq;
5) İstifadə olunmuş inşaat materiallarının bişirilmə rejimləri barədə əsaslandırılmış rəyin verilməsi.

Tədqiqatların aparılmasının xronoloji ardıcıllığı ondan ibarət olmuşdur ki, götürülmüş nümunələrin kimyəvi-mineraloji tərkibi öyrənilmiş və onun yaxın ətrafda olan gil yataqlarından götürülmüş nümunələrin tərkibi ilə müqayisəsi aparılmışdır. Müqayisə nəticəsində kərpicin gətirilmə və ya yaxın ətrafda yerləşən gillə yaxınlıqda bişirilməsi haqqında fikir yürüdülməsi nəzərdə tutulmuşdur. Bu həm də materialın bişmə rejimləri və prosesin hansı avadanlıq və üsulla aparılması haqqında da fikir yürütməyə imkan verə bilər.

Nümunələrin kimyəvi analizi S8 TIGER spektrometrində, Bruger (Almanya) (Cədvəl 1, 3, 5) ve mineraloji tərkibləri isə Miniflex 600 Rentgen difraktometrində, Riqacu (Japonya), mis anodda incələnmişdir.

Nümunələrin kimyəvi və mineraloji tərkibləri uyğun olaraq şəkil 10, 11, 12 və cədvəl 1 və 2-də verilmişdir.




Şəkil 10. Keramik bünyenin difraktoqramması




Şəkil 11. Gil-torpaq nümunəsinin difraktoqramması




Şəkil 12. Şirə nümunəsinin difraktoqramması

Cədvəl 1.

Nümunələrin kimyəvi tərkibi

| Sıra № | Nümunə | Oksidlər və onların miqdarı, % | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | SiO2 | Al2O3 | K2O | MgO | SO3 | FeO | CaO | TiO2 | Na2O | SnO2 | PbO |
| 1 | Gil - torpaq | 72,00 | 8,94 | 1,20 | 0,65 | 2,73 | 3,10 | 2,42 | 0,55 | 2,74/su8,4 | - | - |
| 2 | Keramik bünye | 80,01 | 8,96 | 1,33 | 0,78 | - | 1,83 | 2,95 | 0,40 | 3,74 | - | - |
| 3 | Şirə hissəsi | 66,80 | 3,98 | 0,79 | 0,62 | - | 0,93 | 3,99 | - | 4,68 | 2,11 | 16,11 |

Cədvəl 2

Nümunələrin mineraloji tərkibi

| Sıra № | Nümunə | Minerallar və onların miqdarı, % | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Kvars | Kalsit | Dolomit | Albit | Kristo-balit | İllit | Hematit | Gips | Amorf | Montmor-t |
| 1 | Gil - torpaq | 14 | 20 | 13 | 6 | 5 | 8 | 5 | 4 | 10 | 15 |
| 2 | Keramik bünye | 70 | - | - | 10 | 9 | - | 1 | - | 10 | - |
| | | Kvars | Pb2O3 | Pb3SiO5 | SnO2 | Kristo-balit | Amorf | - | - | - | - |
| 3 | Şirə hissəsi | 35 | 5 | 5 | 2 | 5 | 48 | - | - | - | - |

## 4. NƏTİCƏLƏR

Alınmış nəticələrdən göründüyü kimi kimyəvi tərkib baxımından keramik bünyenin və yaxınlıqdan götürülmüş gil nümunəsinin tərkibində oxşarlıq böyükdür. Hətta bəzi oksidlərin miqdarı demək olar ki, eynidir. Əgər məlum çevrilmələrlə bünyenin oksid tərkibindən onun bişməyə qədərki mineraloji tərkibinə keçid edəriksə, demək olar ki, gil-torpaq nümunəsi ilə eyni tərkibli nümunələrlə işlədiyimizi görəciyik. Bu onu deməyə imkan verir ki, kərpic hardasa türbəyə çox yaxın bir ərazidə bişirilmişdir. Gələcəkdə yaxın ərazilərdə kərpic bişirmə ocaqlarının – dulus kürələrinin tapılması istiqamətində iş aparılmasını da məqsədəuyğun hesab edirik.

Yuxarıda verilən təsvirlərdən göründüyü kimi, Naxçıvan abidələrində istifadə olunmuş material və məmulatlar forma və məzmun baxımından müxtəlif olub, o dövrdə materialşünaslığın inkişaf səviyyəsini əyani şəkildə əks etdirir. Bəhs edilən dövrdə binaların divar səthində həndəsi naxışlar salmaq üçün rombvari, üçbucaqlı, düzbucaqlı, kvadrat, altıguşəli ulduz, ürəkşəkilli üzlük bəzək kərpicləri də istehsal olunurdu. Kərpic memarlığının inkişafı XII əsrdə Azərbaycanda şirli kərpic istehsalının yaranmasını şərtləndirmişdir. Kərpiclərin görülən üzü əsasən firuzəyi və mavi rənglə şirlənmişdir. Qeyd olunur ki, şirli kərpic istehsalının kəşfi sonradan kaşıçılığın meydana gəlib coşqun inkişafına təkan verdi. “Kaşı” sözünü orta əsrlər dövrü İranın nəfis keramika nümunələri hazırlandığı Kaşan şəhərinin adı ilə bağlı olduğu güman edilir. Kaşan şəhərinin inkişaf dövrü isə Böyük Səlcuq dövlətinin tərkibinə daxil olduğu dövrə aiddir. C.Qiyasi qeyd edir ki, göy rəngli şirli kərpiclər Səlcuq imperiyasının başlıca memarlıq mərkəzlərində eyni vaxtda-XII əsrin birinci yarısında meydana gəlmişdir (7, s. 188). Məhz Azərbaycan şəhərlərinin IX əsrin II yarısından başlayan sosial-iqtisadi, mədəni inkişafının ən intensiv çağı elə Səlcuq dövrünə təsadüf edir. Naxçıvan türbələrində kaşı və şirəli kərpiclərdən geniş istifadə artıq o dövrdə bu materialların istehsalının mükəmməl texniki imkanlara malik olduğunu deməyə imkan verir. Əfsuslar olsun ki, bu məsələ tədqiqatçıların diqqətindən bir qədər yayınmışdır. Təbii ki, istehsal mərhələləri özündə hazırda mövcud keramika istehsalı proseslərinin ardıcıllığını ehtiva edir. 1) Xammalın tədarükü, seçilməsi, təmizlənməsi və hazırlanması;2) Xammalın qəliblənmə nəmliyinə gətirilməsi və müəyyən müddət acıdılması; 3) Qəlibləmə;

4) Qurutma; 5) bişirmə; 6)boyama, şirləmə və ikinci bişirmə. Bəzi hallarda şirləmə bişməmiş məmulatlar üzərindən də aparıla bilər. Apardığımız araşdırma göstərir ki, istifadə olunmuş kərpic nümunələri standart ölçülərə malikdir. Bu həmin məmulatların qəliblərdə (böyük ehtimalla taxta qəliblərdə) qəlibləndiyini, quruduqdan sonra diqqətlə sürtülüb hamarlandığını və daha sonra dulus kürələrində bişirildiyini deməyə əsas verir. Kərpiclərin ana rəngi homogen qırmızı- qəhvəyi rəngdədir ki, bu da onların kürədə ayrı-ayrılıqda, bir-birinə bitişdirilmədən və bir-birinin üzərinə qoyulmadan bişirildiyini deməyə əsas verir. Əks halda biz kərpiclər üzərində qara ləkələrin mövcudluğu ilə rastlaşardıq. Şirə tərkibinin kimyəvi-mineraloji analizi göstərir ki, rəng-piqment şirəyə qarışdırılaraq səthə çəkilmişdir. Bu həm şirənin bir tonlu rəng çalarına malik olması, həm də şirə-bünye ayırıcı təbəqəsində piqmant-boya qatına rast gəlinməməsi ilə izah olunur. Şirənin kimyəvi-mineraliji tərkibinin öyrənilməsi bizə ilk dəfə Azərbaycan memarlığında istifadə olunan şirələrin dəqiq tərkibini müəyyən etməyə imka verdi. O dövrdə asanəriyən qurğuşunlu-qalaylı (məşhur Misir şirə tərkibinə yaxın) şirələrdən istifadə olunduğu haqqında məlumatlar olsa da biz bu tədqiqatlarla onların dəqiq tərkibini müəyyən etdik (cədvəl 1, 2). Şirələrin alınması üçün müvafiq tərkibə və narınlığa malik komponentlər dozajlanıb qarışdırılır və yüksək temperaturda tam əriyənə qədər bişirilir (qurğuşunlu şirələr üçün bu temperatur 1100-1200$^0$C təşkil edir). Frit adlanan ərinti suya tökülüb xırdalanır və xüsusi həvəngdəstədə üyüdüldükdən sonra 4-5% miqdarında ağ gil və su qatılıb horra halına salınıb keramik bünyenin üzərinə çəkilirdi. Qurğuşunlu şirələrin adətən 900-1000$^0$C-də bişirildiyini nəzərə alsaq türbənin inşasında istifadə olunmuş şirəli kaşı və kərpic nümunələrinin təxminən 900-1000$^0$C-də bişirildiyini iddia edə bilərik. Bu intervalda sabit temperaturun tutulması (bu şirləmə prosesi üçün çox önəmlidir) mükəmməl dulus kürələrindən istifadə edildiyini və temperatura riayət olunduğunu deməyə əsas verir. O dövrdə kürədə bişməni xüsusi vərdişləri olan ustalar aparırdı və temperatura gözlə, alovun rənginə görə nəzarət edilirdi. Məmulatların həqiqətən bu temperaturda bişirildiyi həmçinin bünyenin kimyəvi-mineraloji tərkibinin öyrənilməsinin nəticələri ilə də təsdiq olunur. Belə ki, kristabolit fazasının əmələ gəlməsi məhz 900$^0$C-dən sonra intensiv xarakter alır. Şirələrin boyanmasının mis, kobalt (Azərbaycanda hər ikisinin məlum böyük yataqları mövcuddur) duzları ilə aparıldığı güman olunur. Kobalt şirəyə göy, mis isə adətən firuzəyi rəng verir.

Kərpic və kaşıların hörgüsü və yapışdırılması üçün istifadə olunan inşaat məhlulunun qarışığının tərkibi də müəyyən elmi-praktiki maraq doğurur. Uzun illər bu məqsədlə Şərqdə Xorasan xərci deyilən qarışıqdan istifadə edildiyi və bu məqsədlə yumurta ağından və sarısından istifadə edildiyi fərz edilir. Hörgü qarışığının ilkin vizual və makroskopik tədqiqatı onun kəc məhlulu ilə hörüldüyünü və yapışdırıldığını deməyə əsas verir. Bununla belə düşünürük ki, bu istiqamətdə ayrıca əlavə tədqiqatların aparılmasına ehtiyac var.

Beləliklə aparılmış tədqiqatlar nəticəsində aşağıdakıları müəyyən etmək mümkün olmuşdur:

1. Türbənin tikintisi 200x200x40 (h) mm ölçüdə kərpic olmaqla yastı düzülüş formasında hörülmüşdür .
2. Kərpic və kaşıların düzgün həndəsi formaya malik olmaları onların taxta qəliblərdə qəliblənib qurudulduqdan və birinci biskivit bişməsindən sonra keçə və digər uyğun yollarla təmizlənib, hamarlanıb cilallandığı fərz edilir.
3. Sübut olunmuşdur ki, türbənin inşasında istifadə edilmiş şirli kərpic yaxınlıqda yerləşən gil xammallarında istifadə edilməklə bişirilmişdir. Bunu keramik bünyenin və yaxınlıqdan götürülmüş gilin kimyəvi-mineraloji tərkibinin oxşarlığı göstərir. Şirəli kərpic nümunəsinə vizual baxış nəticəsində müəyyən edilmişdir ki, o dulus kürələrində ikiqat bişirməklə alınmışdır. Kərpiclərdə hər hansı qara ləkələrin olmaması onların xüsusi üsulla bir-birinə toxunmadan ayrı-ayrı düzülməklə həyata keçirildiyini göstərir. Biskivit bişirmənin mineraloji tərkibin analizinə görə 900-1000$^0$C-də aparıldığı güman edilir.

4. Kərpiclərin boyanması şiraltı boyanma üsulu ilə aparılmadığı müəyyən edilmişdir. Belə ki, şir bünye sərhəddində hər hansı boyanın izlərinə rast gəlinməmişdir. Rəngli şirəli kərpiclər kərpicin üzərinə şəffaf şirəni piqmentləşdirməklə alınmış suspenziyanı çəkməklə əldə edilmişdir.
5. Üst qatın kimyəvi-mineraloji analizinin nəticələri göstərdi ki, şir klassik, qədim qurğuşunlu qalaylı şirdir. Alınmış tərkib əsasında şir bişirib praktiki olaraq aldığımız nəticələrin doğruluğunu bir daha təsdiq etdik. Adətən qurğuşunlu şirlərin 900-1000$^0$C-də bişirildiyini bilərək şirli kərpic bişiriminin də o zaman 900-1000$^0$C-də aparıldığını güman edirik.
6. Göy və firuzəyi rənglərin Mis və kobalt birləşmələrinin şəffaf şirəyə əlavə edib homogen suspenziya alınana qədər üyüdülüb qarışıdırılıb kərpic üzərinə çəkilməklə alındığını böyük əminliklə deyə bilərik.

## 5. ƏDƏBİYYAT SİYAHISI


1. Həbibov X. Orta əsr (Şəmkir şəhərinin inşaat keramikası /Antik və orta əsr Azərbaycan şəhərləri: arxeoloji irsi, tarixi və memarlığı”  Beynəl'alq elmi konfransın materialları, Bakı, 212.
2. Əfəndi R. Azərbaycan incəsənəti. Bakı, 2007.
3. Qiyasi C. Nizami dövrü memarlıq abidələri. Bakı, 1991.
4. Стародуб Т.Х. Исламский мир. Художественная культура. VII-XVII веков. (Архитектура, изображения, орнамент, каллиграфия). Москва, 2010.
5. Məmmədzadə K. Azərbaycanda inşaat sənəti. Bakı, 1978
6. Əhmədov Q. Orta əsr Beyləqan şəhəri. Bakı, 1979.
7. İsmayılova A. Orta əsr Beyləqan şəhərinin kaşı nümunələri haqqında (Milli Azərbaycan Tarixi Muzeyinin materialları əsasında).
8. Qəniyev H.Q. Azərbaycan tarixi (ən qədim zamanlardan – XXI əsrin ilk onilliklərinədək) Ali məktəblər üçün dərslik. Bakı, 2019, “Elm və Təhsil” nəşriyyatı, 499 səh.
9. Алиева К. Тебризская ковровая школа. XVI-XVII вв. Баку: Элм, 1999, 268 с., с.33; 53-54
10. Əliyeva, S. A. Naxçıvan abidələrinə diqqəti artırmalı ("Azərbaycan abidələri" jurnalı, N1). Bakı. 1984.

# AZƏRBAYCANDA SAHİLYANI ƏRAZİLƏRİN MEMARLIQ- PLANLAŞDIRMA VƏ ŞƏHƏRSALMA XÜSUSİYYƏTLƏRİ

**HƏSƏNOVA NƏZİFƏ**
Bakı Mühəndislik Universiteti
Memarlıq və İnşaat/Şəhərsalma
hnezife@gmail.com
BAKI, AZƏRBAYCAN

## XÜLASƏ

Bu məqalədə sahilyanı ərazilərin yenidən qurulması, onların rasional təşkili problemləri, memarlıq mühitinin yaradılması və inkişafı prinsipləri araşdırılmışdır. Həmçinin şəhərin planlaşdırma strukturunda memarlıq-şəhərsalma obyekti kimi sahilyanı ərazilərin bədii və estetik xüsusiyyətləri, memarlıq və landşaft vəziyyətləri, habelə müxtəlif, rəngarəng və ifadəli memarlıq mühitinin yaradılması əks olunur. Sahilyanı ərazilərin təşkili, yenidən qurulması yolu ilə şəhərin planlaşdırma strukturunun formalaşdırılması məsələləri qeyd olunur. Sahil zonasının inkişafı üçün bir sıra maneələr vardır: Suya sərbəst və rahat çıxışın olmaması, sahil zolağına yaxınlaşmağa mane olan böyük plansız dayanacaqlar, sənaye sahələri, hündürmərtəbəli yaşayış binalarının mövcudluğu və başqalarını misal göstərmək olar.

Sahil zonası təbii proseslərin, insan fəaliyyətinin və dəyişən iqlim şəraitinin qarşılıqlı əlaqədə olduğu daim dəyişən şəhər mühitidir. Şəhər mühiti küçələrin, meydanların, kəsişmələrin və binaların boşluqlarının qarşılıqlı əlaqədə olduğu şəhərin bir-biri ilə əlaqəli hissələrinin mürəkkəb funksional-məkan quruluşudur. Bu gün böyük şəhərlərdə rahat və ahəngdar bir mühit yaradarkən memarlar təbii şəraitdən istifadə etməyə çalışırlar, onların əsas vəzifəsi yaratmaqdır.
Sahil əraziləri həmçinin turizm, limanlar və balıqçılıq kimi bir çox mühüm iqtisadi fəaliyyətlərə ev sahibliyi edir və onlar çoxsaylı bitki və heyvan növləri üçün kritik yaşayış mühitini təmin edir.

**AÇAR SÖZLƏR:** Şəhər**,** sahilyanı ərazilər, abadlıq,inkişaf, memarlıq mühiti, urbanizm

## SUMMARY

This article examines the reconstruction of coastal areas, the problems of their rational organization, the principles of creating and developing the architectural environment. Also, the planning structure of the city reflects the artistic and aesthetic features of coastal areas as an object of architectural and urban planning, architectural and landscape situations, as well as the creation of a diverse, colorful and expressive architectural environment. The issues of forming the planning structure of the city through the organization, reconstruction of coastal areas are noted. There are a number of obstacles to the development of the coastal zone: the lack of free and convenient access to water, large unplanned parking lots that interfere with approaching the coastline, industrial areas, the presence of high-rise residential buildings and others.

The coastal zone is a constantly changing urban environment in which natural processes, human activity and changing climatic conditions interact. The urban environment is a complex functional-spatial structure of interconnected parts of the city, in which streets, squares, intersections and spaces of buildings interact. Today, when creating a comfortable and harmonious environment in large cities, architects strive to use natural conditions, their main task is to create.

Coastal areas are also home to many important economic activities such as tourism, ports and fishing, and they provide critical habitat for numerous plant and animal species.

## GİRİŞ

Bu gün şəhərsalma təcrübəsi göstərir ki, ötən illər ərzində sahilyanı ərazilər sənaye və anbar təyinatlı obyektlər kimi istifadə olunurdu. Müasir memarlıq və şəhərsalmanın ən mühüm komponentləri bu məkanların təkmilləşdirilməsi, fərqli, müxtəlif və ifadəli memarlıq mühiti, funksional və kommunikasiya əlaqələri və s. dir.

Məqalədə suyun yaxınlığında yerləşən ən məşhur tipli binaların əsas xüsusiyyətləri aşağıdakı ardıcıllıqla sıralanmışdır:

- Binaların və yolların düzgün layihələndirilməsi suya sərbəst çıxış əldə etməyə imkan verəcək və ərazini onun dominantları ilə görmək imkanı verəcək.
- Sosial və fiziki aktivliklə istirahət üçün bütün lazımi şəraitin yaradılması ərazinin cəlbedicilik göstəricisini artırmaqla yanaşı, şəhər büdcəsinə qoyulan investisiyaları da artırır.
- Bu yerlərdə sakinlərin həyat tərzinin yaxşılaşdırılması və turistlərin cəlb edilməsi üçün təbiətin, elm və texnikanın ən son nailiyyətlərini nəzərə alaraq onları ictimai həyat və sərbəst istirahət üçün təchiz etmək lazımdır.

Respublikamızın ərazisində, Xəzər dənizinin qərb sahilində Qobustanla həmsərhəd olan Abşeron yarımadasının sahilboyu hissəsi okean səviyyəsindən 28 m. - dək aşağıdır. Neft və neft məhsulları ilə ən çox çirklənmiş əraziləri Qaradağ, Binəqədi, Sabunçu, Suraxanı və Səbail rayonları ərazisindədir.

Sənayenin sürətli inkişafı əhalinin sayının artmasına və çoxlu sayda yaşayış massivlərinin tikilməsinə səbəb olmuşdur.Yaşayış massivlərində isə vahid kanalizasiya sistemləri qurulmadığına görə onların tullantı suları yaxında olan göllərə və ətraf ərazilərə axıdılır. Nəticədə həmin su hövzələri çirklənərək gərgin ekoloji ərazilərə çevrilmişdir.





Bayıl bulvarı artıq neft mədəni deyil, gözəl mənzərəsi, yaşıllığı ilə seçilən ərazidir. Bura bəlkə də dünyada yeganə istirahət mərkəzidir ki, ərazisində işlək neft quyuları var. Əvvəllər ekoloji cəhətdən əlverişsiz sayılan, hər yerdə neft tullantıları ilə çirklənən ərazi son illərdə aparılan işlər nəticəsində inanılmaz dərəcədə dəyişilib.

Paytaxtımız Bakı şəhəri bulvarının tarixi ötən əsrin əvvəllərinə gedib çıxır. Belə ki, 1909-cu ildə mühəndis Məhəmmmədhəsən Hacinski Bakı Duması qarşısında bulvarın inşa edilməsi barədə məsələ qaldırıb və bu məsələyə müsbət yanaşılıb. Əvvəlcə Qız qalasından Azneft dairəsinə qədər olan ərazidə bulvar yaradılması barədə qərar çıxarılıb. Prezident İlham Əliyevin göstərişi ilə Bayıl bulvarının yaradılması layihəsinin icrasına isə 2013-cü ildə başlanılıb.





Dənizkənarı Bulvarın təbii landşaftının bərpası, onun tarixi simasının saxlanılması, mühafizəsi, burada sosial-mədəni tədbirlərin həyata keçirilməsi məsələlərinin həllini təmin etmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2008-ci il yanvarın 10-da Dənizkənarı Bulvar İdarəsinin yaradılması haqqında Fərman imzaladı. Bu Fərmandan sonra ərazidə əsaslı şəkildə abadlıq işləri görülməyə başladı. Görülən abadlıq işləri sayəsində parkın yaşıllıq zolağı xeyli genişləndirildi.





"Bayıl Bulvarı"nın uzunluğu 9,2 kilometr, sahəsi 123,394 hektardır. Yeni bulvar ərazisində yenidənqurma və abadlıq işləri nəticəsində müxtəlif istirahət və iaşə obyektləri ilə yanaşı müasir mədəniyyət obyektləri də inşa edilmişdir.

Sakinlərin həyat tərzinin yaxşılaşdırılması, turistlərin cəlb edilməsi üçün elm və texnikanın ən son nailiyyətlərini nəzərə alaraq bu yerləri ictimai həyat, istirahət üçün təchiz etmək lazımdır. Şəhərin sahilyanı ərazilərinin istirahət potensialından tam istifadə edilmir. Təchiz olunmamış piyada yolları və sahil xətləri, suyun rahat enişlərinin olmaması onlardan yan keçməyi məcbur edir.
Şəhər sakinlərinin istirahəti üçün lazımi şəraitin yaradılması yalnız məhəllənin cəlbedicilik indeksini artırmır, həm də investisiya artımına kömək olur. Şəhərin görünüşünə və panoramasına təsir edən memarlıq inkişafı texniki cəhətdən təchiz oluna və sahil ərazisinin landşaftının təşkili ilə dəstəklənə bilər. Binaların və magistral yolların düzgün layihələndirilməsi suya sərbəst giriş və dominantları ilə uyğunlaşma imkanı yaradar.

Sahil əraziləri intensiv olaraq şəhər məkanı kimi inkişaf etdirilməyə başlamışdır. Çox istifadə olunmayan ərazilər yeni təyinatlar ilə əvəz olunmuşdur. Hal-hazırda sahilyanı ərazilər iri yaşayış, biznes, ictimai və istirahət komplekslərinin tikintisi kimi çıxış edir.

Sahil məkanlarının memarlıq və landşaft vəziyyətlərinin, bədii-estetik xüsusiyyətlərinin müasir texnologiyanın verdiyi imkanlarla birlikdə yenidən ələ alınması məsələləri sürətlə aparılır. Əvvəllər istifadə edilən unikal təbii sərvətləri də ortaya qoyur. Hal-hazırda, şəhərlərin tikintisi, problemlərin həllinin ənənəvi yolları abadlaşdırılmış açıq şəhər əraziləri, xüsusən də mərkəzi şəhərlərdə inkişafın sıx konsentrasiyasına tabe olan sahələr investorlar üçün maraqlıdır.

**TƏDQİQAT METODU**

Bu məqalədə tədqiqat metodu sahilyanı ərazilərin memarlıq və landşaft vəziyyətlərinin, bədii-estetik xüsusiyyətlərinin müasir texnologiyanın verdiyi imkanlarla birlikdə yenidən ələ alınması məsələləri vizual, yazılı və elektron materialllardan istifadə edilərək təhlil edilmişdir.

**NƏTİCƏ**

Xarici və yerli təcrübələrdə bu kimi məsələlərin öhdəsindən gəlmiş şəhərlər var. Nümunələr arasında əsas problemləri aradan qaldırmaq üçün bir sıra həllər təklif edə bilərik: binanın maksimum hündürlüyünə dair qaydaları tətbiq etmək və geniş yamacdakı həcm prinsipindən istifadə etmək, çünki bu, sudan uzaqda yerləşən binalardan mənzərənin cəlbedici görünüşünü qorumağa kömək edəcəkdir; inteqral məkanlar yaratmaq, inkişaf üçün müəyyən edilmiş ərazidə funksiyaları müəyyənləşdirmək, idmana (aktiv yerlər, uşaq oyun sahələri və s.), ictimai yerlərə (kafe, restoran, yeməkxanalar və s.), xidmətlərə (idman avadanlığı icarəsi, mövsümi xidmət mərkəzləri və s.), çimərlik zonalarına və sakit istirahət zonalarına üstünlük vermək; qurulmuş və açıq məkanları rasional olaraq dəyişdirmək məqsədəuyğundur.
- Keçmiş sənaye zonalarını müasir parklarla əvəz etmək və yenidən qurmaq; ardıcıl olaraq köhnə bitki örtüyünü yenisi ilə əvəz edərək, şəhər və sahil zonası arasında yaşıllıq zolağı qurmaq;
- İnsanın özünü inkişaf etdirməsi və istirahət etməsi üçün rahat mühit, aktiv sahil əraziləri yaratmaq; - Səthlərin, sahil möhkəmləndirmə strukturlarının bitirilməsi üçün təbii materiallardan (daş, ağac) istifadə etmək;
- Vizual birlik üçün landşaft sənəti ilə memarlığı birləşdirmək;
- Köhnə və istifadə olunmamış geniş sənaye ərazilərini bərpa etmək;
- Bina və tikililərin enerji səmərəliliyini artırmaq üçün alternativ enerji mənbələrindən istifadə etmək, təbii işıqlandırma səviyyəsini artırmaq;

- Memarlıq həcmlərinin və kiçik formaların kompozisiya birliyinə nail olmaq, ərazinin tarixi imicini qorumaq;
- Su yaxınlığındakı binaların rəng müxtəlifliyi və əhəmiyyətli strukturların vizual ayrılması səbəbindən şəhərin su panoramasını bərpa etmək və yaxşılaşdırmaq;
- Piyadalar üçün sərbəst və müxtəlif nəqliyyatı təmin etmək;
- Potensial ekoloji çirklənmə mənbələrini (nəqliyyat, sənaye müəssisələri) azaltmaq və başqa təklifləri sadalaya bilərik.

Şəhərdə, hər hansı bir bədii əsərdə olduğu kimi, kompozisiya quruluşu da aydın oxunur. İnkişafın və açıq yaşıllıqların müxtəlifliyinin, bədii ifadəliyinin və estetik keyfiyyətlərinin artırılması xarici abadlığın əsas məqsədlərindən biridir. Şəhər və idman meydançalarının memarlıq dizaynı, nəqliyyat, küçələr, pilləkənlər, terraslar şəhər mühitinə orijinallıq və miqyas əlavə edir.

Sahil ərazisi su yaxınlığında bir şəhər məkanıdır həm də sahil möhkəmləndirilməsi üçün konstruktiv bir quruluşdur. Onların yeri strukturların materialına mənfi təsir göstərən bir yerdədir, buna görə onların quruluşunu və əsas xüsusiyyətlərini ətraflı nəzərə almaq lazımdır.

Sahilin tərkib hissələrinə aşağıdakılar daxildir: sahil su sahəsinin elementləri olan hidrotexniki qurğular (dayaqlar, dalğalar); sahil terrasları (qırmızı tikinti xəttinin tənzimləmə xəttindən və ya sahil yamacına qədər); sahildə və suda memarlıq strukturları; bitişik inkişafın sahil yamacı və ya cəbhəsi; kiçik memarlıq formalarının və avadanlıq elementlərinin ətraf dizaynı.

Sahilin vacib elementlərindən biri abadlıqdır (ərazinin mühəndis hazırlığı, şəhər avadanlıqları, örtüklər və haşiyələr, istirahət yerləri və s.), sahil bağlantısı funksional zona və üslubdur. Sahilə yaxın olan və çimərliklərdən görünən obyektlərin hündürlüyü böyük deyil,bir qayda olaraq 3 mərtəbədən yüksək olmamalıdır (daha yüksək tikinti həcmləri şəhər mərkəzinə yaxın olmalıdır). Bu cür binaların üstünlük təşkil edən forması ətrafdakı relyefə bənzəyir və sahil mənzərəsi ilə vizual əlaqəyə sahib olmalıdırlar. Bu cür obyektlərin memarlığı orijinal və bənzərsizdir ki, bu da şəhərin uğurlu inkişafına, şəhər mühitində əlamətdar bir yerin yaradılmasına və daha çox sayda turist axınına kömək edəcəkdir. Belə binaların yeni bir "cazibə" yerinə çevrilməsi üçün bu obyektlərin tərkibinə su səthini daxil etmək lazımdır ki, istirahət komponenti bərpa olunsun, məkan planlaşdırma yanaşması səbəbindən şəhər və su arasında əlaqə olsun və su səthi ilə qarşılıqlı əlaqədə olsun.

Yeni piyada infrastrukturu yalnız sahildəki piyada keçidi deyil, həm də hovuz körpüləri, sərgi sahələri, su üzərində körpülər və pilləkənlər ola bilər.Təbii terras piyada və nəqliyyat axınlarının daha yaxşı ayrılmasını təmin edir ki, bu da əlçatanlıq, təhlükəsizlik kimi məsələlərin müxtəlifliyinə səbəb olur.

Sahillərdə yaxt klubları, dəniz terminalları və qatar stansiyaları kimi binalar ola bilər, lakin təəssüf ki, onların maddi gəlirliliyi mövsümi olur. Bu binaların il boyu aktual olması üçün bir sıra yeni xüsusiyyətlər əlavə edilməlidir. Bu cür binalara nümunələr göstərə bilərik: Portuqaliyada Marina Douro, burada əsas funksiyalara əlavə olaraq idman zalı, təhsil məkanları, su nəqliyyatı icarəsi və kafelər mövcuddur; Yaponiyada Yokohama International Passenger Terminal Foreign, burada da mağazalar, sərgi və qalereya salonları, parklar və baxış sahələri, kafe və avtovağzallar mövcuddur; Fortaleza Maritime sərnişin terminalını da nümunə göstərmək olar.

Sahilləri nəzərə alaraq, sahil zonasının yaxşılaşdırılmasına və inkişafına mane olan bir sıra əsas maneələri ayırmaq olar: inkişafın artan sıxlığı və su boyunca gəzməyi qeyri-mümkün edən sərbəst çıxışın olmaması, görünüşü maneə törədən və mövcud inkişafı nəzərə almayan yeni çoxmərtəbəli yaşayış binalarının tikintisi; mənzərəni korlayan və suya girişə mane olan tikililər və yol infrastrukturu; liman qurğuları və tərsanələr.

Tədqiqat əsasında təkmilləşdirilmənin əsas yollarını ayırmaq təklif olunur, məsələn: maksimum tikinti hündürlüyü qaydalarının tətbiqi, inkişaf üçün müəyyən edilmiş ərazidə düzəldilmiş və açıq sahələrin rasional dəyişdirilməsi, keçmiş sənaye zonalarının yeni parklarla əvəz edilib yenidən qurulması, sahil ərazilərinin yaşıllaşdırılması, istirahət üçün əlverişli yerlərin formalaşdırılması, təbii materialların istifadəsi, investisiya cəlbediciliyinin artırılması və s. Bu vəziyyətdə bu cür səhvlərin qarşısını almaq üçün mənfi nümunələri nəzərə almaq lazımdır.

Toplanmış xarici və yerli təcrübədən istifadə edərək, sahil şəhərlərində suyun yanında vaxt keçirmək üçün daha əlverişli şərait yaratmaq, ətraf mühitin tələblərini, elm və texnologiyanın nailiyyətlərini nəzərə alaraq ətraflarında unikal texniki cəhətdən təkmilləşdirilmiş müasir atmosfer yaradan yeni binalarla şəhər ərazisini dəyişdirmək mümkündür.

Sahil zolağında yerləşən sahil və binaların dizaynı və bərpası zamanı iqlim, geoloji tədqiqatlar, daşqın statistikasının təhlili, ərazinin rayonlaşdırılması və binaların suya nisbətən yerləşməsi nəzərə alınmalıdır.

**ƏDƏBİYYAT SİYAHISI**


1. Гуськова Е. В. Принципы архитектурной ревитализации приречных пространств (из опыта России и Франции): диссертация кандидата архитектуры. Нижний Новгород, 2010. С. 160.
2. Набережные городов мира: от заброшенных территорий к комфортному общественномупространству Электронный ресурс. . - Режим доступа: Ира:// stroi.mos.ru/photo_lines/mirovye-naberezhnye?from=cl. Дата обращения: 12.10.2018;
3. Альбом типовых решений по комплексному благоустройству набережных Москвы-реки//по заказуКомитета по архитектуре и градостроительству города Москвы-М. - 2016. - С. 564;
4. 3. Дружина И.Е. Город и вода: основные градостроительные приемы формирования городской средыи прибрежных территорий Баку // Вестник Иркутского Государственного Технического Университета.- 2014. - № 12. - С. 107-116;
5. 4. Нефедов В.А. Береговая архитектура и дизайн среды у воды // Российский архитектурный порталЗеленый город Электронный ресурс. . - Режим доступа: http://green-city.su/beregovaya-arxitektura-i-dizajn-sredy-u-vody/. Дата обращения: 07.12.2018

# Müxtəlif əlavələrin beton xassələrinə təsirinin tədqiqi

**Camalova Xəyalə Baba qızı**
khayala.james@mail.ru
**Azərbaycan Memarlıq və İnşaat Universiteti**

**Xülasə.** Cari işdə müxtəlif əlavələrin fibro betonların xassələrinə təsiri öyrənilmişdir. Təcrübələrdə Norm 42,5 R sementindən, xırda doldurucu kimi qum vəələnti qumdan, iri doldurucu kimi isə qırmadaşdan, eyni zamanda mineral əlavə kimi mikrosilikadan, plastikləşdirici kimi hiper və superplastikləşdiricidən, fibro kimi isə plastik və dəmir fibrodan istifadə olunmuşdur.

**Abstrakt.** In the current study, the effect of various additives on the properties of fiber concrete was studied. In the experiments, Norm 42.5 R cement, sand and fine sand as fine fillers, crushed stone as coarse fillers, microsilica as a mineral additive, hyper and superplasticizers as plasticizers, and plastic and iron fiber as fiber were used.

**Açar sözlər:** mikrosilika, superplastikləşdirici, hiperplastikləşdirici, fibro

**Keywords:** microsilica, superplasticizer, hyperplasticizer, fibro

**Giriş.** Yeni və təkmilləşdirilmiş tullantısız və ya az tullantılı texnologiyanın tətbiqi ilə, yerli xammal və texnogen tullantıların istifadəsi ilə, az əmək tutumlu, aşağı enerji sərfiyyatlı, yeni tərkibli və daha yüksək istismar göstəricili inşaat materiallarının və məmulatlarının istehsalı müasir inşaat sektorunun qarşısında duran mühüm vəzifələrdəndir. Nəzərə alsaq ki, tikintidə konstruktiv, konstruktiv-istilik-izolyasiya və izolyasiya materialları kimi tətbiq olunan materiallardan biri və daha geniş çeşiddə istifadə edilən beton və dəmir-beton konstruksiyalarıdır, onda bu materialların rəqabət qabiliyyətli olması vacibdir. Elə ona görə də, istehsalçı müəssisələr hər il istehsal etdikləri müxtəlif təyinatlı beton qarışıqlarının və onların əsasında istehsal olunan məmulatların keyfiyyətinin yaxşılaşdırılmasına və tətbiq sahələrinin genişləndirilməsinə çalışırlar. Bu isə laboratoriya şəraitində betonun xassələrinin hərtərəfli, o cümlədən istismar göstəricilərinə təsir edən faktorların araşdırılmasına və yeni tərkibli betonların işlənməsi məsələlərini aktuallaşdırır.

Portlandsement, dəmir fibro, doldurucular, plastikləşdirici, modifikasiya olunmuş əlavələr və su tərkibli qarışığın bərkidilməsi ilə modifikasiya olunmuş fibro beton tərkibi işlənmişdir. Təcrübələrdə sonluğu metal məftillə ankerlənmiş «микрасарм» fibrodan, «Д11» plastikləşdiricidən, diametri 8-40 nm, uzunluğu 2-50 mkm olan çoxlaylı karbon nanoborucuqlardan istifadə edilmişdir. Müəyyən edilmişdir ki, əlavələr birlikdə portlandsementin dispersqasiyasına səbəb olur. Alınmış modifikasiya olunmuş fibro betonların sıxılmada və əyilmədə möhkəmlik həddi artmaqla yanaşı, şaxtayadavamlılığı və sukeçirməməzlik göstəriciləri də yüksəlir [1]. Bazalt fibro lifli ağır beton tərkibi işlənmiş və təcrübi olaraq sübut edilmişdir ki, kompleks şəkildə narın üyüdülmüş xüsusi yüksək dispers lifli doldurucular, polipropilen "SP3" superplastikləşdirici, taunit modifikatoru, eyni zamanda texniki karbon istifadə edildikdə ağır betonun sıxılmada və əyilmədə möhkəmlik həddini artırmaq mümkündür [2]. Yüksək istismar

göstəricili fibro beton tərkibi işlənmişdir. Belə betonların sıxılmada möhkəmlik həddi 180 Mpa-dan, əyilmədə möhkəmlik həddi isə 10 MPa-dan yüksək olmuşdur. Betonların bu göstəricilərdən başqa xarakterik möhkəmlikləri dartılmada möhkəmliyi və uzunömürlülüyü hesabına konstruksiyanı naziltməklə çəkisini azaltmaq mümkündür. Bu göstəricilərnən yanaşı alınan fibro betonda bəzi çatışmamazlıqlar da aşkar olunmuşdur. İlkin bərkimə dövründə yüksək dərəcədə yığışma, səthinin quruması və çatlaması müşahidə edilmişdir. Müəyyən edilmişdir ki, gərginlik nəticəsində yığışma 1,5 MPa yüklə təsir göstərdiyi zaman müşahidə olunur [3].

**Tədqiqatın metodu.** Təqdim olunmuş işdə metal və plastik fibroların tətbiqi ilə hazırlanan betonun mexaniki xassəsi öyrənilmişdir. Müqayisə üçün paralel olaraq yoxlama sınaq nümunəsi kimi B25 sinifli ağır betondan hazırlanmış nümunələrdən də istifadə olunmuşdur. Nümunələr və yoxlamaları Azərbaycan Memarlıq və İnşaat Universitetinin İnşaat materialları elmi-tədqiqat və sınaq laboratoriyasında aparılmışdır. Betonun möhkəmlik həddi EN 12390-2 saylı sınaq üsullarına görə təyin olunmuşdur. Nümunələrin sınanılması UTEST UTC-4320 hidravlik presdə aparılmışdır.

**Nəticə.** Tədqiqat nəticələrinin təhlili göstərir ki, adi betonla müqayisədə kimi hiper və superplastikləşdirici əlavəli fibrobeton nümunələrinin mexaniki göstəriciləri əhəmiyyətli şəkildə artmışdır.

### İstifadə olunmuş ədəbiyyatların siyahısı

1. Перфилов В.А. Способ приготовления модифицированной фибробетонной смеси модифицированная фибробетонная смесь: Пат. 2433038 Россия, МПК B28C 5/40 (2006.01), C04B 28/00 (2006.01). №2010104361/03; Заявл. 08.02.2010; Опубл. 10.11.2011. Рус.
2. Зубова М.О. 17 Региональная конференция молодых исследователей Волгоградской области, Волгоград, 6-9 нояб., 2012: Тезисы докладов. Направление 16. Архитектура, строительство и экологические проблемы. Волгоград. 2013, с. 20-21. Рус.
3. Yoo Doo-Yeol, Park Jung-Jun, Kim Sung-Wook, Yoon Young-Soo. Early age setting, shrinkage and tensile characteristics of ultra high performance fiber reinforced concrete. Constr. and Build. Mater. 2013. 41, с. 427-438. Англ.

## YENİ MATERİALLARIN ƏŞYA MÜHİTİNDƏ TƏTBİQİ

## APPLICATION OF NEW MATERIALS IN THE OBJECT ENVIRONMENT

***Talıbova Nərmin Elşən qızı, qr.M162***
Azərbaycan Memarlıq və İnşaat Universiteti
Memarlıq fakültəsi, Mühit dizaynı kafedrası
email: *ntalibova00gmail.com*
Bakı, Azərbaycan

**Xülasə**
İnteryer dizaynda yeni materialların istifadəsi son illərdə olduqca geniş yayılmışdır. Şüşə, kompozit materiallar, emal edilmiş materiallar və LED işıqlandırma texnologiyası kimi innovativ materiallar estetika, davamlılıq, davamlılıq və dizayn variantları baxımından əhəmiyyətli üstünlüklər verir. Bu materiallardan istifadə etməklə interyer dizaynerləri daha yaradıcı və müasir dizaynlar yarada, boşluqların funksionallığını və estetikliyini artıra bilərlər.
**Açar sözlər:** Yeni materiallar, interyer dizaynı, şüşə, kompozit materiallar

**Summary**
The use of new materials in interior design has become quite common in recent years. Innovative materials such as glass, composite materials, recycled materials and LED lighting technology provide significant advantages in terms of aesthetics, durability, sustainability and design options. Using these materials, interior designers can create more creative and modern designs and increase the functionality and aesthetics of spaces.
**Keywords:** New materials, interior design, glass, composite materials

### Giriş

Əşya mühiti insanın şəxsiyyət kimi formalaşmasında əsas faktorlardan biri hesab olunur. İnsanlar hər daim özünə emosional və psixoloji təsir edən əşya mühitinə fərqlilik gətirmə düşüncəsi ilə axtarışdadırlar. Fiziki tələbatı və rahatlığı ilə yanaşı insanlar əşya mühitinin fərdiliyinə daha çox diqqət yetirilər. Əşya mühiti dizayn layihələndirməsinin tərkib hissəsi olaraq, funksional, erqonomik tələblərlə bərabər estetik cəhətdən də insanların zövqlərinə cavab verməlidir.
Daxili mühitin dizaynı daim yeniliklərə açıq olan bir sahədir. Bu yeniliklər yeni tikinti texnologiyalarının və yeni materialların tətbiqi ilə əlaqəlidir. İnteryerlərdə yeni materiallar ( məsələn LED işıqları və s.) möhkəmlik, davamlılıq, estetiklik və ekolojik olmaq kimi əhəmiyyətli üstünlüklər təmin edərək dizaynerlərə daha çox çeşid təqdim edirlər.



Şəkil: 1



Şəkil: 2

Beləliklə, interyer dizaynında yeni materialların istifadəsi əşya mühitinin tərtibi zamanı dizaynerlər qarşısında yeni imkanlar açır. Bu materiallar interyer və əşya dizaynına yeni düşüncələr, yeni yanaşmalar gətirir. Xüsusilə, şüşənin, kompozit materialların, təkrar emal materiallarının, müasir innovativ materialların, yeni dekorativ və işıqlandırma sistemlərinin yeni tərzdə istifadəsinə xüsusi diqqət yetirilir.

LED — interyer dizaynda məşhur işıqlanma variantıdır. LED işıqlardan interyer dizaynda çox yönlü istifadə edərək bir çox fərqli effektlər və atmosfer yarada bilinir. Daxili dizaynda LED işıqların istifadəsi yaradıcılıq və şəxsi istəklərdən asılıdır. Arzu olunan effektə nail olmaq üçün rəng, parlaqlıq, məkan və işıqlandırma kimi amillər diqqətlə nəzərdən keçirilməlidir. LED işıqlar tavanlarda, divarlarda və ya döşəmələrdə gizli olaraq yerləşdirilir və ya interyerin ümumi işıq mənbəyi kimi də istifadə edilə bilər. LED işıqlardan hər hansı bir sahəni vurğulamaq , daxili məkanları ayırmaq , özəlləşdirmək və dekorativ effekt yaratmaq üçün də istifadə edilir.



Şəkil: 3



Şəkil: 4



Şəkil: 5

Hal hazırda eksteryer və interyerlərdə istifadə edilən müasir materialların xassələri, üstün cəhətləri, dekorativ xüsusiyyətləri, çatışmamazlıqları və tətbiq üsulları çox istiqamətli şəkildə araşdırılır.
Texnologiyalar inkişaf etdikcə yeni materialların istehsalı da artır. Yeni üsullarla innovativ materialların istehsalı mühit dizaynında yeni formalar, düşüncələr, ideyalar formalaşdırır. Yeni innovativ materiallara şəffaf ağac materiallarını, dekorativ akril tavaları, aerogeli, kompozit kağız materialını, maye qraniti, hidrokeramikanı, karbon liflərini, biokömür üzlük materialını və s. misal göstərmək yerinə düşər. Material istehsalının əsas məqsədi daha möhkəm, dayanıqlı, uzunömürlü, keyfiyyətli, yüksək dekorativ və ekoloji təmiz materialları yaratmaqdan ibarətdir. İnteryer dizaynında yeni ideyaların reallaşdırılması bilavasitə müasir yeni materialların tətbiqi ilə mümkündür. Bu baxımdan təhlükəsiz əşya mühitinin tərtibatında dizaynerlər, tədqiqatçılar və tələbələr üçün materiallar ideya mənbəyi hesab oluna bilər.



Şəkil: 6



Şəkil: 7



Şəkil: 8



Şəkil: 9

## Tədqiqatın metodu

Məqalənin araşdırılmasında əşya mühitinin layihələndirilməsi və tətbiqi zamanı bilavasitə müasir texnologiya istiqamətli materialların və əşyaların istifadə etməklə real təcrübələr kecirilmişdir.

## Nəticə

Yaşayış mühitində interyer dizaynında yeni materialların istifadəsi, estetika, davamlılıq, funksionallıq, erqonimika kimi xüsusiyyətlər və dizayn variantları baxımından əhəmiyyətli üstünlüklər təmin edir. Şüşə, kompozitlər və təkrar emal edilmiş materiallar kimi innovativ seçimlər interyer dizaynerləri tərəfindən yaradıcı və müasir dizaynlar yaratmaq üçün istifadə olunur.
Bundan əlavə, LED işıqlandırma texnologiyası da daxili işıqlandırma üçün daha çox istifadə olunan bir seçim halına gəldi. Bu innovativ materiallar interyer dizaynında limitsiz dizayn variantları təklif edərək məkanların estetikasını və funksionallığını artırır.

## Ədəbiyyat


1. Chen, J., & Chen, C. (2019). Innovative Interior Design with New Materials. Journal of Design Research, 17(3), 163-181. doi: 10.1515/jdr-2019-0015
2. Törnqvist, C., & Linderholm, K. (2018). New Materials in Interior Design: A Qualitative Study on Contemporary Designers' Approaches to Materials. Journal of Interior Design, 43(4), 153-171. doi: 10.1111/joid.12145
3. Lee, J. (2021). The Use of New Materials in Interior Design: A Review. Journal of the Korean Society of Interior Design, 30(4), 117-125. doi: 10.14701/jksid.2021.30.4.117
4. He, L., & Shi, Y. (2019). Application of New Materials in Interior Design. Journal of Civil, Construction and Environmental Engineering, 4(1), 19-23. doi: 10.11648/j.ccee.20190401.13
5. Park, J. (2017). Innovative Use of New Materials in Interior Design. Journal of Asian Architecture and Building Engineering, 16(2), 239-244. doi: 10.3130/jaabe.16.239

# VULKAN KÜLÜNÜN İNŞAAT MƏHLULUNA TƏSİRİNİN ÖYRƏNİLMƏSİ

**Əkbərova.S.M., Azərbaycan Memarlıq və İnşaat Universiteti, dosenti, t.e.d, Bakı ş.**

**sev10@rambler.ru,**

**Xəlilov Y.X., Bakı Mühəndislik Universitetinin dosenti, t.e.n., Xırdalan ş.**

**y.halilov@mail.ru**

**Əsədov S.Ə., Azərbaycan Memarlıq və İnşaat Universiteti, magistrant., Bakı ş**

**id.s.asadov@gmail.com**

**Abstract:** Dünyada vulkan külün istifadəsi olduqca müxtəlifdir. 75 tikinti materialına əlavə kimi istifadə olunur. Bir çox ölkələr tikinti materialı kimi vulkan külцdən istifadə edirlər. Tikinti məhlullarının xüsusiyyətlərini yaxşılaşdırmaq üçün tədqiqatlarda vulkan külündən istifadə edilmişdir. Təcrübələr göstərmişdir ki, sement məhlullarına 10%-ə qədər əlavə edilən vulkan külü sement məhlullarının xassələrinə müsbət təsir göstərir.

**Açar sözlər:** vulkan külü, məhlul, əlavə, inşaat məhlulunun yayılması, komponent

## Giriş

Hazırda enerji və resursa qənaət edən texnologiyalar əsasında səmərəli inşaat materiallarının yaradılması inşaat materialları elminin prioritet vəzifəsidir. Bu, bir tərəfdən tikinti sənayesinin yüksək keyfiyyətli və ucuz materiallara artan tələbatı ilə əlaqədar resurs bazasının genişləndirilməsi zərurəti ilə, digər tərəfdən isə ümumi ekoloji vəziyyətin pisləşməsi ilə əlaqədardır. Eyni zamanda, təbiətin mühafizəsi və onun ehtiyatlarından səmərəli istifadə ilə bağlı problemlər müasir tikinti materialları sənayesindən xüsusi diqqət tələb edir.

Tikinti materiallarının istehsalında perspektivli xammal növlərindən biri vulkan püskürmələri nəticəsində yerin səthində və ya onun yaxınlığında əmələ gələn süxurlardır [1]. Qeyd etmək lazımdır ki, püskürmələrin özləri əsasən mənfi xarakter daşıyır və biosferin vəziyyətinə mənfi təsir göstərir. Geniş ərazilərdə vulkan məhsulların toplanması kənd təsərrüfatı torpaqlarının sahəsinin azalmasına, qida bazasının azalmasına və yaşayış yerlərinin azalmasına səbəb olur. Eyni zamanda, vulkan süxurların qalın təbəqələrinin aşınma sürəti və yeni torpaqların əmələ gəlməsi temperatur rejimindən, atmosfer yağıntılarının miqdarından, axıntı şəraitindən və səthin təbiətindən asılıdır [2] və kifayət qədər uzun müddət vaxt tələb edə bilər.

Xüsusilə standart materialların gətirilməsi və ya istifadəsi mümkün olmayan yerlərdə yerli xammaldan istifadə çox vacibdir. Son onillikdə müxtəlif tikinti kompozisiyaların istehsalında istifadə olunan kompozisiya yapışdırıcıların alınması üzrə fəal işlər aparılır [3]. Alimlər vulkan külünün tədqiqinə çox vaxt sərf edərək, bu püskürmə məhsulunun öz tərkibinə görə universal olması və orijinal keyfiyyətlərə malik olması qənaətinə gəlmişdirlər. Dünyada vulkan külünün istifadəsi kifayət qədər müxtəlifdir. Ondan 75 tikinti materialı üçün əlavələr kimi istifadə olunur. Bir çox ölkələr vulkan külündən tikinti materialı kimi istifadə edir.

Yuxarıda deyilənlərə əsaslanaraq belə nəticəyə gəlmək olar ki, vulkan fəaliyyətinin məhsullarından tikinti materialları sahəsində geniş istifadə olunur. Vulkan məhsulları müxtəlif təyinatlı tikinti materiallarının - konstruktiv, konstruktiv və istilik- izolyasiya, istilik və səs izolyasiya, dam örtüyü, xüsusi təyinatlı materiallar və s. istehsalı üçün yararlıdır: Eyni zamanda qeyd etmək lazımdır ki, vulkan süxurlardan istifadə edilən qarışıqlar əsasında tikinti materiallarının xassələri nəinki tələblərə cavab verir, həm də ənənəvi xammaldan alınan materialların xüsusiyyətlərini üstələyə bilər.

Böyük ehtiyata malik olan Ceyrançöl yatağının vulkan küllərinin öyrənilməsi maraq doğurur. Ceyrançöl vulkan külünün təbii narınlığı o qədər yüksəkdir ki, 006 nömrəli (10000 sm$^2$/deş) ələkdə qalığı

12% təşkil edir. Ona görə də Ceyrançöl vulkan külünü istifadə etdikdə üyüdülməyə enerji sərfi tələb olunmur.

Müasir dövrdə məhlulların xassələrinin daha da yaxşılaşdırılması üçün bir sıra tədqiqat işləri aparılmışdır.

Tədqiqatlarda inşaat məhlullarının xassələrini yaxşılaşdırması üçün vulkan külü əlavəsindən istifadə olunmuşdur.

**Nəticə**

Tədqiqatlarda inşaat məhlulları hazırlamaq üçün CEM-I 52,5 sinifli portlandsement, Ağstafa qumu, Ceyrançöl vulkan külündən istifadə olunmuşdur. Piroklastik süxurlar portlandsementdə aktiv mineral əlavə kimi geniş istifadə olunur. Bununla belə, onların təsir mexanizmi ətraflı şəkildə araşdırılmalıdır. Sementlərin fiziki-mexaniki xassələrinin aktiv əlavələrin kimyəvi və mineraloji tərkibindən asılılığı xüsusi əhəmiyyət kəsb edir.

Vulkan mənşəli əlavələr sement daşının inşaat- texniki xüsusiyyətlərinə fərqli təsir göstərir. Bu, bir tərəfdən vulkan şüşəsinin tərkibi ilə, digər tərəfdən isə aktivlik mənbəyi olan şüşənin sonradan digər minerallara keçməsi ilə əlaqədardır. Ceyrançöl vulkan külünün kimyəvi tərkibi cədvəl 1-də verilmişdir.

**Cədvəl 1**

Ceyrançöl vulkan külünün kimyəvi tərkibi

| Materialın adı | $SiO_2$ | $Al_2O_3$ | $Fe_2O_3$ | CaO | MgO | $SO_3$ | $Na_2O$ | $K_2O$ |
|---|---|---|---|---|---|---|---|---|
| Ceyrançöl vulklan külü | 71.0 | 14.31 | 1.97 | 1.99 | 0.96 | 0.71 | 3.37 | 3.91 |

Tərkibində 20 və 30% vulkan külü olan sement daşı nümunələrinin sınaqları göstərdi ki, onların sıxılmada möhkəmliyi 28 günlükdə bir qədər azalır.

Təcrübələrin nəticələri cədvəl 2-də verilmişdir.

**Cədvəl 2**

| Nümunənin №-si | Vulkan külünün miqdarı, % | Sement məhlulunun yayılma diametri, mm (EN 196+1) | Nümunələrin sıxılmada möhkəmlik həddi, MPa | | |
|---|---|---|---|---|---|
| | | | 2 gün | 7 gün | 28 gün |
| 1 | 0% | 108 | 25,7 | 37,7 | 52,9 |
| 2 | 10% | 113 | 25,6 | 38,8 | 54,8 |
| 3 | 20% | 115 | 23,1 | 36,8 | 47,6 |

Aparılan təcrübələr göstərmişdir ki, sement məhlullarına 10%-ə qədər qatılan vulkan külü sement məhlulunun xassələrinə müsbət təsir edir. Beləliklə, bu elmi tədqiqatlar ekoloji problemlərin həlli, ərazi və təbii sərvətlərdən səmərəli istifadə edilməsi üçün yeni yanaşma və istiqamətləri müəyyən etməyə, onların əsasında iqtisadi cəhətdən səmərəli texnologiyalardan istifadə etməklə təkmilləşdirilmiş və ya unikal xassələrə malik tikinti materialları və məmulatları yaratmaq üçün imkan yaradır.

**Ədəbiyyat**

1. Романовская М.А. Петрографический кодекс. Магматические и метаморфические образовани.// СПБ; 1995.[Электронный ресурс] http://www.knowledge.su. 2015 - 2017 гг.

2. Литасов Ю.Д. Вулканизм Земли и планет земной группы //Учебное пособие для студентов геологических и смежных специальностей высших и средних профессиональных учебных заведений, изучающих курсы «Общая геология», «Вулканология», «Палеовулканология». 2011. 200 с.

3. Лузин В.П., Антонов В.А., Лузина Л.П., Беляев Е.В., Пермяков Е.Н., Самигуллин Р.Р. Эффективные строительные материалы с применением вулканического пепла // Строительные материалы. 2009. №12. С. 18–19.

## STUDY OF THE INFLUENCE OF VOLCANIC ASH ON CONSTRUCTION MORTAR

**Abstract:** The use of volcanic ash in the world is quite diverse. It is used as additives for 75 construction materials. Many countries use volcanic ash as a building material. Additives such as volcanic ash have been used in research to improve the properties of construction solutions. Experiments have shown that volcanic ash added to cement solutions up to 10% has a positive effect on the properties of cement solutions.

**Keywords:** volcanic ash, mortar, additive, spread of construction mortar, component

## ИССЛЕДОВАНИЕ ВЛИЯНИЯ ВУЛКАНИЧЕСКОГО ПЕПЛА НА СТРОИТЕЛЬНЫЕ РАСТВОРЫ

**Аннотация**: Использование вулканического пепла в мире весьма разнообразно. Используется в качестве добавок в строительных материалах. Многие страны используют вулканический пепел в качестве строительного материала. Такие добавки, как вулканический пепел, использовались в исследованиях для улучшения свойств строительных растворов. Опыты показали, что добавление к цементным растворам вулканического пепла до 10 % оказывает положительное влияние на свойства цементных растворов.

**Ключевые слова:** вулканический пепел, раствор, добавка, расплыв строительного раствора, компонент

# TEXNOPARKLARIN MEMARLIQ VƏ ŞƏHƏRSALMA SAHƏLƏRİNDƏ XÜSUSİYYƏTLƏR

**AYTƏKİN ƏLLƏZZADƏ**
Bakı Mühəndislik Universiteti
Memarlıq və İnşaat Fakultəsi Magistr Şəhərsalma bölməsi
*aellezzade1@std.beu.edu.az*
BAKI, AZƏRBAYCAN

**XÜLASƏ**

Bu məqalədə sənaye parkların memarlıq təşkili və fəaliyyət xüsusiyyətləri barəsində qısaca məlumat verilmişdir. Dünya təcrübəsinin təhlili əsasında sənaye parkların ətraf mühitinin müxtəlif sosial, iqtisadi və ərazi şəraitində təşkili ümumi prinsiplərinin tətbiqi nəticəsində inkişaf etmiş bir sıra memarlıq və təşkilati modellər yaradıldı. Sənaye parkların memarlıq təşkilatının əsas xüsusiyyətləri vurğulanmışdır. Texnoparklar ölkə iqtisadiyyatın əsasını təşkil edir. Onun layihələnməsi ölkədə inkişafa və yeniliklərə qapı açır. Bir əsrə yaxındır ki, yaranan və meydana gələn texnoparklar memarlıq və şəhərsalma sahələrində önəmli qanun və qaydalarla layihələnir.

Texnopark müasir iqtisadiyyatın vacib elementlərindəndir. Texnoparkları müxtəlif aspektlərdən nəzərdən keçirmək olar:

I. Texnoparka iqtisadi elmtutumlu məhsul istehsal edən ərazinin xüsusi növü kimi;

II. Texnopark elmə əsaslanan kiçik sahibkarlığın dəstəklənmə forması kimi;

III. Elm texnoparkda maliyyə və digər dəstəklər alır. Bununla da elmin dövlətdən aslılığı azalır. Beləliklə, texnoparklar milli elmin dəstəklənmə forması olur.

**AÇAR SÖZLƏR:** memarlıq, sənaye parklar, texnopolislər, dizayn, elmi komplekslər, tədris kompleksləri

**ABSTRACT.**

